QARABAĞ AZƏRBAYCANDIR!

**Azərbaycanın Baş naziri və Türkiyənin Vitse-prezidenti Şuşa şəhərində olublar**



6



Səs

№ 205 (6646) 6 noyabr 2022-ci il. Qiyməti 60 qəpik



## Bayrağımız qürur mənbəyimiz, and yerimiz, varlığımızdır

4

# 8 Noyabr - Zəfər Günün mübarək, Azərbaycan!



2

İLHAM ƏLİYEV: "Bu, bizim şanlı Qələbəmizin, Zəfərimizin günüdür"

**YAP-ın 30 illik yubileyinə həsr olunmuş minifutbol üzrə turnirin bağlanış mərasimi keçirilib**



5

**Şuşa möcüzəsini yaradan Azərbaycan əsgəri**



8

## YAP-30

**O dövrün təəssüratları**



10

**"44"-lük şillə xatırlatması - ilin sonuna çox az qaldı...**




9

**Ərzaq təhlükəsizliyimizi necə təmin edə bilərik?**



5

# 8 Noyabr - Zəfər Günün mübarək, Azərbaycan!



## İLHAM ƏLİYEV: "Bu, bizim şanlı Qələbəmizin, Zəfərimizin günüdür"




***Bu gün Azərbaycan xalqı Vətən müharibəsində qazanılmış şanlı Qələbəmizin ikinci ildönümünü - Zəfər Gününü böyük coşqu, sevinc və qürur hissləri ilə qeyd edir. Azərbaycanın çoxəsrlik tarixinə qızıl hərflərlə yazılan Qarabağ Zəfəri Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin qüdrətli sərkərdəliyi, qəhrəman əsgər və zabitlərimizin, şəhidlərimizin qanı və canı bahasına qazanılıb. Xalqımız və rəşadətli Ordumuz 44 gündə şanlı tarix yazaraq 30 illik işğala son qoydu, ərazi bütövlüyümüz bərpa olundu. Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyev Azərbaycanı qalib ölkəyə, Azərbaycan xalqını qalib xalqa çevirdi. Bu möhtəşəm Qələbə, eyni zamanda, Prezident-Xalq birliyinin təntənəsi oldu, Azərbaycanın hərbi və iqtisadi gücünü dünyaya nümayiş etdirdi.***

### 8 NOYABR ZƏFƏR GÜNÜ- PREZİDENT-XALQ BİRLİYİNİN TƏNTƏNƏSİ

Güclü ölkənin güclü, qətiyyətli lideri də güclü olur. Böyük mütəfəkkir Viktor Hüqo vaxtilə yazırdı: "Əsl Liderin ömrünün yarısı Vətənə, digər yarısı da xalqa xidmət etməkdən ibarətdir". Bu gün müstəqil Azərbaycanı güclü edən, onu sabitlik məkanına çevirən əsas amil də məhz xalqımızın ölkə Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyev tərəfindən uğurla davam və inkişaf etdirilən Ulu Öndər Heydər Əliyev ideyalarına olan sonsuz sədaqətidir. Məhz elə buna görədir ki, 19 il əvvəl "Mən hər bir Azərbaycan vətəndaşının prezidenti olacağam" məramı ilə Prezident İlham Əliyevin həyatı xalqına və Vətəninə həsr olunmuş əsl LİDER ömrüdür. Cənab İlham Əliyev Ulu Öndərimizin "Xalq dövlət üçün yox, dövlət xalq üçün olmalıdır" fikirlərini reallığa çevirərək bir daha isbat etdi ki, O, məhz Vətəninin, xalqının rifahı üçün yaşayan LİDERDİR.Və 44 günlük müharibədə Azərbaycan xalqı öz liderinin - müzəffər Ali Baş Komandan İlham Əliyevin ətrafında sıx birləşərək bütün dünyaya öz gücünü, mətinliyini, mübarizliyini nümayiş etdirdi. Bu real faktordur ki, bütün müharibələrdə əsas sözü xalq və onun ordusu dediyi kimi uğurlu zəfərlərdə sərkərdənin də çox böyük rolu olur. Bu gün Azərbaycan xalqı hansı səviyyədə uğurlu sərkərdəyə - Ali Baş Komandana sahib olduğunu aşkar gördü. Prezident İlham Əliyev yalnız hərb meydanında müzəffər sərkərdə deyil, diplomatik cəbhədə böyük strateq nümunəsi ortaya qoydu, informasiya müharibəsində Azərbaycanın haqq səsi oldu, cəsarətlə bütün təzyiqlərə sinə gərdi, öz xalqı ilə vəhdətdə olan lider kimi mübarizlik rəmzinə çevrildi. Sentyabrın 27-dən başlayan, 44 gün davam edən və işğal altındakı ərazilərimizin azad olunması ilə nəticələnən Vətən müharibəsi tariximizin ən parlaq səhifəsinə, Azərbaycan xalqının iftixar və qürur mənbəyinə çevrildi.

### "QARABAĞ AZƏRBAYCANDIR!" REALLIĞI 44 GÜNDƏ MÜMKÜNSÜZÜ MÜMKÜN ETDİ

Prezident İlham Əliyev 19 ildə həyata keçirdiyi siyasətin nəticəsində Azərbaycanı 30 ilə yaxın davam edən münaqişədə qalib tərəfə çevirdi, ərazi bütövlüyümüzün birmənalı olaraq təsdiq edildi. Müzəffər Azərbaycan Ordusu Ali Baş Komandanın rəhbərliyi altında cəmi 44 günə mümkünsüzü mümkün etdi! Ermənistanın hərbi kaputilyasiyasına nail olduq! Bəşəriyyətə haqqın, ədalətin böyük dövlətlərin tapdağından qurtara biləcək bir dövlətin - Azərbaycanın var olduğunu sübut etdik. Bu ədaləti 44 gün ərzində yazan Azərbaycan xalqı, bütün dünya azərbaycanlıları, bütün Türkiyə xalqı bir yumruq kimi birləşərək təkcə Ermənistanın yox, bütövlükdə haqsız güclərin üstünə getdi və sübut etdi ki, haqq yolunda, ədalətin, ərazi bütövlüyümüzün bərpası uğurunda vuruşuruq. 10 noyabrda Müzəffər Azərbaycan Ordusu cəmi 44 günə hərbi yolla 30 il düşmən torpağında inləyən vətən torpaqlarını işğaldan azad etdi.

Ardı Səh. 3

# 8 Noyabr - Zəfər Günün mübarək,

# Azərbaycan!





## İLHAM ƏLİYEV: "Bu, bizim şanlı Qələbəmizin, Zəfərimizin günüdür"

Əvvəli Səh. 2

Prezident, Ali Baş Komandan İlham Əliyev xalqa müraciətində bildirdi ki, Şuşanın azad edilməsi dünya hərb tarixində xüsusi yer tutatacaq.

Bəli, o gün Dağlıq Qarabağ münaqişəsinə nöqtə qoyulduğu gün oldu. 30 illik münaqişə 44 gündə Azərbaycanın qələbəsi ilə bitdi. Bu qələbəni Ali Baş Komandanın ətiyyəti, siyasi iradəsi, müzəffər Ordumuzun şücaəti, qəhrəmanlığı, qorxmaz, cəsur əsgərlərimizin canı, müqəddəs, ölməz şəhidlərimizin qanı, xalqımızın birliyi hesabına qazandıq...30 illik münaqişəni 44 günə sona çatdıran bu qısa müharibə dünya hərb tarixinə də misli görünməmiş savaş kimi düşdü. Azərbaycan Ordusunun gücünü, Azərbaycan xalqının qüdrətini bəşəriyyətə sübut etdi. Ali Baş Komandan İlham Əliyevin qətiyyəti, ordumuzun qəhrəmanlığı sayəsində Vətən savaşı qələbə ilə başa çatdı. Şuşa şəhərinin və onun işğaldan azad edilməsinin tarixi əhəmiyyəti nəzərə alınaraq, xalqımızın qüdrətinin və milli qürurumuzun təntənəsinə çevrilən, dövlətimizin nüfuzu və gələcək inkişafı baxımından müstəsna əhəmiyyət kəsb edən bu misilsiz qələbənin əbədiləşdirilməsi məqsədilə Azərbaycan Prezidentinin "Azərbaycan Respublikasında Zəfər Gününün təsis edilməsi haqqında" 2020-ci il 2 dekabr tarixli Sərəncamına əsasən Vətən müharibəsində misilsiz qələbənin əbədiləşdirilməsi məqsədilə hər il noyabrın 10-nun Azərbaycanda Zəfər Günü kimi təntənəli şəkildə qeyd edilməsi qərara alındı. Həmçinin, Vətən Müharibəsindəki böyük qələbəmizi 2020-ci il dekabrın 10-da Qələbə Paradı keçirildi. Qələbə bayrağımızı parada gətirilməklə qailb ordumuzun bölmələrini, döyüş texnikalarımızı nümayiş etdirməklə hərbi gücümüzü dünyaya nümayiş etdirdik. Ölkə rəhbərimiz, Ali Baş Komandanımız İlham Əliyev xalqa müraciətdə bu böyük Qələbəni xalqına bəyan etməkdən böyük fəxarət və qürur hissi duyduğunu deyib: "Böyük fəxarət və qürur hissi ilə bəyan edirəm ki, Şuşa şəhəri işğaldan azad edildi! Şuşa bizimdir! Qarabağ bizimdir! Bu münasibətlə bütün Azərbaycan xalqını ürəkdən təbrik edirəm. Bütün şuşalıları ürəkdən təbrik edirəm. İyirmi səkkiz il yarım işğal altında olan Şuşa azad edildi! Şuşa indi azaddır! Biz Şuşaya qayıtmışıq! Biz bu tarixi Qələbəni döyüş meydanında qazandıq. 2020-ci il noyabrın 8-i Azərbaycan tarixində əbədi qalacaqdır. Bu tarixi əbədi yaşayacaq. Bu, bizim şanlı Qələbəmizin, zəfərimizin günüdür! Bu qələbəni biz döyüş meydanında qazandıq, danışıqlar masası arxasında yox".Budur, Azərbaycan Prezidenti, Ali Baş Komandanımızın diplomatik siyasəti! Budur, xalqının Prezidenti olmaq! Budur, Liderlik missiyası! Bəli, bu gün Ali Baş Komandanımız, Prezident İlham Əliyev bu tarixi qələbəni bir daha əbədiləşdirdi. Bu zəfərin formulu isə Müzəffər Ali Baş Komandan-Xalq Birliyi və Azərbaycan əsgəridir. 8 noyabr Zəfər Günün mübarək, Azərbaycan! Qarabağ Azərbaycandır! Zəfərin mübarək, Azərbaycan!

**RƏFİQƏ KAMALQIZI**



# Bayrağımız qürur mənbəyimiz, and yerimiz, varlığımızdır

**Azərbaycan Respublikasının Dövlət Bayrağı milli suverenliyin simvolu, qürur mənbəyidir. Bayrağımız Azərbaycan vətəndaşlarının milli həmrəyliyinin, vahid məfkurə ətrafında sıx birləşməsinin başlıca amillərindən biridir. Ən müqəddəs rəmzlərdən olan bayraq millətin varlığının, mövcudluğunun sübutu, müstəqil dövlətə sahib çıxmaq bacarığının əsas göstəricisidir. Ölkəmizdə qürurverici bir haldır ki, Dövlət Bayrağı Günü qeyd olunur. Azərbaycan Prezidenti İlham Əliyevin 17 noyabr 2009-cu il Sərəncamı ilə Dövlət Bayrağı Günü ölkəmizdə 9 noyabr tarixində qeyd olunmağa başladı. Azərbaycan Xalq Cümhuriyyətinin yadigarı olan Dövlət Bayrağı 1918-ci il noyabrın 9-da Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin iclasında qəbul edilib.**

1920-ci il aprelin 28-də Azərbaycan Xalq Cümhuriyyətinin süqut etməsi və Sovet hakimiyyətinin qurulması ilə üçrəngli bayrağımızın yüksəklikdə dalğalanmasına sədd qoyulsa da, bu, xalqın təfəkküründə dərin iz salmışdır. Hər kəs bu böyük amalla Azərbaycan bayrağının Vətən torpağında dalğalanması arzusu ilə yaşamışdı. Yalnız 70 ildən sonra Azərbaycanın üçrəngli bayrağı milli şüurun oyanışı ilə yenidən Azərbaycan xalqının milli müstəqilliyinin və iradəsinin ifadəsi kimi dalğalanmağa başladı.

1990-cı illərin çətin, ağır günlərində Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə Naxçıvanda mühüm dövlətçilik fəaliyyəti həyata keçirilərək, milli dövlətçilik ənənələrinin əsası qoyuldu. Azərbaycan Xalq Cümhuriyyətinin yadigarı olan bayraq 1990-cı il noyabrın 17-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə keçirilən sessiyada Naxçıvan Muxtar Respublikasının dövlət bayrağı kimi təsdiq edilib.

1991-ci il fevralın 5-də Azərbaycan Respublikası Ali Soveti bu bayrağın yenidən Azərbaycanın Dövlət bayrağı kimi qəbul edilməsi haqqında qərar qəbul edib. Sonralar Ümummilli Lider bu barədə deyirdi: "Mən belə fikirdəyəm ki, Naxçıvan MR Ali Məclisinin qəbul etdiyi qərarlar Azərbaycan Respublikasının işinə çox təsir etdi və Azərbaycan rəhbərliyi bir neçə belə qərarın qəbul edilməsində məcburiyyət qarşısında qaldı. Naxçıvan Muxtar Respublikasının üzərində bu bayraq 1990-cı il noyabrın 17-də, Azərbaycan Respublikasında isə 1991-ci il fevralın 5-də dalğalandı".



Bayrağımızda olan hər bir rəng Azərbaycan xalqına məxsus dəyərləri özündə ehtiva edir. Göy rəng Azərbaycan xalqının türk mənşəli olmasını göstərir, türkçülük ideyası ilə bağlıdır. Qırmızı rəng müasir cəmiyyət qurmaq, demokratiyanı inkişaf etdirmək, bir sözlə, müasirləşməni və inkişaf istəyini ifadə edir. Yaşıl rəng isə islam sivilizasiyasına və islam dininə mənsubluğun göstəricisidir.

Deməк, bayrağımız üzərindəki hər bir rəng Azərbaycan tarixindən danışır. Bayrağımız qürur mənbəyimizdir və and yerimizdir. Müqəddəs varlıq olan üçrəngli bayrağımıza and içirik. Bu gün hər bir vətəndaşın üzərində ciddi mənəvi məsuliyyət var. Hər bir vətəndaş bu yükü öz çiyinlərində hiss etdikcə, onun dövlətçilik idealları püxtələşir. Azərbaycan xalqının türk milli mədəniyyətinin, müsəlman sivilizasiyasının və müasir Avropa demokratik əsaslarının simvoluna çevrilən, azadlıq eşqimiz olan üçrəngli bayrağımız bu gün göylərə yüksəlib.

Ulu Öndər Heydər Əliyevin siyasi kursunu uğurla davam etdirən Azərbaycan Prezidenti İlham Əliyev dövlət rəmzlərinə böyük diqqət göstərir. Ən yüksək zirvələrdə dalğalanan üçrəngli bayrağımız Azərbaycan dövlətinin gücünü və xalqımızın milli birliyini nümayiş etdirir. Azərbaycan Prezidenti çıxışlarının birində bildirib: "Bayrağımız qürur mənbəyimizdir. Bizim bayrağımız canımızdır, ürəyimizdir".

Müasir dövrümüzdə Dövlət Bayrağımız dünyanın müxtəlif ölkələrində dalğalanır. Respublikamızın dövlət qurumlarının və diplomatik nümayəndəliklərinin binaları üzərində ucalır. Mötəbər mərasimlərdə və yarışlarda Azərbaycan Bayrağının dalğalanması hər kəsdə qürur doğurur. Yüksəklərdə dalğalanan bayrağımız hər birimizə qürur, böyük iftixar və azadlığın dərin hisslərini yaşadır. Bu gün Azərbaycan Ordusunun sahib olduğu güc də Onun bayrağımıza olan dərin məhəbbətindən və sədaqətindən qaynaqlanır. Azərbaycan əsgəri vətənimizin suverenliyinin və ərazi bütövlüyünün qorunması ilə bağlı şərəfli əsgəri vəzifəsini yerinə yetirməyə başlayarkən, müqəddəs bayrağımıza and içir. Azərbaycanın Dövlət bayrağı milli suverenliyin simvolu kimi ölkəmizin bütün vətəndaşları üçün müqəddəs dövlətçilik rəmzlərindən birinə çevrilib.

Azərbaycan Xalq Cümhuriyyətinin yadigarı olan üçrəngli bayrağımızın bu gün Qarabağda, Şərqi Zəngəzurda, Şuşada dalğalanması hər bir vətəndaşımıza qürur hissi yaşadır. Artıq hər kəs əmindir ki, bayrağımız işğaldan azad olunmuş torpaqlarda da əbədi olaraq dalğalanacaq.

***Zümrüd BAYRAMOVA***

# "Zəfərimiz Azərbaycan-Türkiyə birliyinin simvoluna çevrilib"

**"Zəfər tariximiz Ali Baş Komandan İlham Əliyevin uzaqgörən siyasətinin və Müzəffər Ordumuzun qəhrəmanlıq səhifəsidir". Bunu millət vəkili Azər Badamov "Səs" qəzetinə açıqlamasında bildirib.**

Millət vəkili bildirdi ki, Böyük Qələbəyə şəhidlərimizin qanı-canı bahasına nail olduq: "Allah şəhidlərimizə rəhmət eləsin, qazilərə cansağlığı versin. Zəfər tariximiz Azərbaycan-Türkiyə birliyinin simvoluna çevrilmişdir. Zəfər tariximiz Azərbaycanı dünyaya qalib libasında yeni imic qazandırdı. Müharibənin başa çatmasından keçən iki il ölkəmizin həyatı üçün çox əlamətdar hadisələrlə zəngin oldu. İşğaldan azad olunmuş ərazilərdə geniş infrastruktur layihələri icra olunur, şəhər və kəndlərin baş planları təsdiq olunaraq yenidən tikilir və Ağalıdan Böyük Qayıdışa başladıq. Ölkəmiz regionda sülhün yaranmasına xidmət edən çağırışlar etməsinə baxmayaraq çox təəssüf ki, Azərbaycanın qələbəsini və güclənməsini həzm edə bilməyən dairələr erməniləri yenidən ruhlandırmaqla özlərinin əsil simalarının nümayişini davam etdirirlər. Fransanın prezidenti Makronun Frans-2 kanalına Azərbaycana qarşı qərəzli müsahibə verərək erməni sevgisinin nümayişi, İranın qırmızı xətt məsələsini ortaya ataraq sərhədlərimizdə hərbi təlimlərin keçirilməsi və ölkəmizdə sabitliyi pozmaq üçün agentura şəbəkəsini yerləşdirilməsi cəhdləri mübarizəmizin daha genişləndirməyimizin vacibliyinə çağırışlardır. Prezident İlham Əliyev Vətən müharibəsində olduğu kimi, müharibədən sonrakı dövrdə də dövlətin milli maraqları hər şeydən üstün tutaraq beynəlxalq tribunalardan Azərbaycana qərəzli münasibət nümayiş etdirərək erməniləri ruhlandıranlara çox qətiyyətli cavablar verir".



Azər Badamov onu da bildirdi ki, Ermənistanla münasibətlərin tənzimlənməsinə dair keçirilən bütün görüşlərdə Cənab Prezidentin dəyişilməz mövqeyi qəti şəkildə ortaya qoyulur: "Bütün məsələlər Azərbaycanın suveren ərazisinin bütövlüyü çərçivəsində razılaşdırılır. Zəfərimizin daha da möhkəmlənməsi üçün informasiya müharibəsində daha geniş və aktiv mübarizə davam etdirilməlidir. Biz hər yerdə düşmənlərimizi qabaqlamalıyıq və onların saxta təbliğatın ayaq açmasına imkan verməməliyik. Zəfərimizin əsasında dayanan milli birliyimizi və həmrəyliyimizi həm ölkə daxilində, həm də beynəlxalq müstəvidə daha da möhkəmlətməliyik. Düşmən unutmasın ki, "Dəmir Yumruq" yerindədir. Sonda qarşıdan gələn Zəfər Günü münasibətilə xalqımızı təbrik edir, ölkəmizə sülh, inkişaf və rifah arzulayıram".

***Gülyana***

## Azərbaycanın xüsusi təyinatlılarının İranla sərhəddə təlimi keçirilib

Müdafiə naziri general-polkovnik Zakir Həsənovun təsdiq etdiyi döyüş hazırlığı planına əsasən Azərbaycanın cənub sərhədlərinə yaxın ərazilərdə Xüsusi Təyinatlı Qüvvələrin hərbi hissələrinin təliminin növbəti mərhələsi icra edilib. Bu barədə SİA-ya Müdafiə Nazirliyindən məlumat verilib.

Real döyüş şəraitinə uyğunlaşdırılmış təlimin növbəti mərhələsində xüsusi təyinatlılar ərazinin qorunma xüsusiyyətləri və maskalanma vasitələrindən istifadə etməklə müxtəlif kəşfiyyat tapşırıqları yerinə yetiriblər.

Ssenariyə əsasən şərti düşmənin komanda-idarəetmə məntəqələri, rabitə mərkəzləri sıradan çıxarılıb, eləcə də yaşayış məntəqələrindəki infrastruktur obyektlərində gizlənən canlı qüvvə zərərsizləşdirilib.

Təlimdə həmçinin döyüş meydanında qrupun qarşılaşa biləcəyi manevrlər mobil qruplar şəklində dəf edilərək şərti hədəflərə qəfil atəş basqını icra edilib. Xüsusi Təyinatlı Qüvvələrin hərbi hissələrinin təlimində qarşıya qoyulan tapşırıqlar müvəffəqiyyətlə yerinə yetirilib.

## "11 noyabrda 111 111 ağac əkiləcək"

Qardaş Türkiyənin "Gələcəyə nəfəs!" şüarı altında hər il noyabrın 11-də Türkiyədə keçirilən genişmiqyaslı ağacəkmə aksiyası ölkəmizdə artıq ənənəyə çevrilib.

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Ekoloji Maarifləndirmə və İctimaiyyətlə Əlaqələr şöbəsinin müdiri Səyyarə Məmmədova SİA-ya bildirib ki, qardaş Türkiyədə hər il 11-ci ayın 11-ci günündə keçirilən bu təşəbbüsə ölkəmiz növbəti dəfə də böyük ruh yüksəkliyi ilə qoşulacaq. "Bu il də Türkiyənin bu təşəbbüsünü dəstəkləyərək bütün ölkə ərazisində 111 111 ağac əkməklə bu nəcib aksiyaya töhfə verəcəyik".

Şöbə müdiri qeyd edib ki, Azərbaycan 2020-ci ildən başlayaraq Türkiyənin "Gələcəyə nəfəs" adlı ağacəkmə təşəbbüsünə qoşulub və ölkənin bütün bölgələrində kütləvi ağacəkmə aksiyaları keçirib. "Bu cür irimiqyaslı aksiyaların keçirilməsi yaşıllıqların genişləndirilməsi ilə yanaşı, iqlim dəyişmələrinin fəsadlarını minimuma endirmək üçün ölkəmizin qoşulduğu təşəbbüslərə dəstəkdir".

***Abutel İlhamqızı***

# YAP-ın 30 illik yubileyinə həsr olunmuş minifutbol üzrə turnirin bağlanış mərasimi keçirilib

***Noyabrın 5-də Yeni Azərbaycan Partiyasının (YAP) 30 illik yubileyinə həsr olunmuş minifutbol üzrə turnirin bağlanış mərasimi keçirilib.***

YAP Gənclər Birliyinin sədri Bəxtiyar İslamov turnir barədə hesabat təqdim edərək bildirib ki, turnirin keçirilməsində məqsəd Yeni Azərbaycan Partiyasının təsis edilməsinin 30 illiyi ilə əlaqədar silsilə tədbirlərin əhatə dairəsinin genişləndirilməsi, gənclər arasında sağlam həyat tərzinin və həvəskar minifutbolun təbliğidir. Oktyabrın 15-dən start verilmiş minifutbol turnirində ümumilikdə respublikanın 76 rayon və şəhərindən 864 nəfər gənc iştirak edib. 12 qrupda mübarizə aparan 72 komandadan ibarət turnirin qrup və play-off oyunları Bakı, Sumqayıt, Qusar, Qəbələ, Mingəçevir, Goranboy, Tovuz, Lənkəran, Biləsuvar, Tərtər və Saatlı şəhərlərində keçirilib. Hər qrupdan 1 komanda olmaqla ümumilikdə 12 komanda play-off mərhələsinə vəsiqə qazanıb. Play-off mərhələsinin yekununda 3 komanda Bakı şəhərində keçirilən final oyunlarında iştirak şansı əldə edib.

Mərasimdə əvvəlcə YAP Yasamal rayon təşkilatının sədri Bəxtiyar Nəbiyev tərəfindən oyunları idarə edən hakimlərə xatirə hədiyyələri təqdim olunub.

I, II, III yerləri tutmuş Tovuz, Bərdə, Sabunçu komandalarının oyunçuları müvafiq
















diplomlar, medallar və xatirə hədiyyələri ilə, qalib komanda isə əlavə olaraq kubokla təltif olunub.

III yerin qalibi - Sabunçu komandasını YAP Təftiş Komissiyasının sədri Sevinc Hüseynova, II yerin qalibi - Bərdə komandasını YAP Veteranlar Şurasının sədri Arif Rəhimzadə, I yerin qalibi - Tovuz komandasını isə YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov təltif edib.

Turnirin bağlanış mərasimində çıxış edən YAP Sədrinin müavini-Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov qarşıdan gələn Zəfər bayramı, Dövlət Bayrağı Günü və Yeni Azərbaycan Partiyasının 30 illik yubileyi münasibətilə tədbir iştirakçılarını təbrik edib. Tahir Budaqov bildirib ki, hazırda respublikada partiyamızın 30 illik yubileyi ilə əlaqədar silsilə tədbirlər davam edir. Bu tədbirlər sırasında gənclər arasında keçirilən idman və intellektual yarışlar da xüsusi yer tutur. YAP Sədrinin müavini qarşıdakı günlərdə keçiriləcək tədbirlər haqqında da məlumat verib. YAP Mərkəzi Aparatının rəhbəri minifutbol turnirinin bütün iştirakçılarını təbrik edərək vurğulayıb ki, bu kimi turnirlərdə təmsil olunmaq ulu öndər Heydər Əliyev ideyalarına, Prezident İlham Əliyevin siyasətinə və Yeni Azərbaycan Partiyasının prinsiplərinə sadiqliyin nümunəsidir.

Yeni Azərbaycan Partiyasının 30 illik yubileyinə həsr olunmuş minifutbol turniri Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi ilə başa çatıb.











# Azərbaycanın Baş naziri və Türkiyənin Vitse-prezidenti Şuşa şəhərində olublar








**Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov və ölkəmizdə rəsmi səfərdə olan Türkiyə Respublikasının Vitse-prezidenti Fuat Oktay Şuşa şəhərində olublar.**

Nazirlər Kabinetinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Baş nazir Ə.Əsədov və Türkiyənin Vitse-prezidenti F.Oktay Şuşada mədəni abidələri və şəhərin görməli yerlərini ziyarət edib, o cümlədən Şuşa şəhər meydanı, Yuxarı Gövhər Ağa məscidi, Cıdır düzü və Molla Pənah Vaqifin muzey-məqbərə kompleksi ilə tanış olublar.

Daha sonra Şuşa şəhərində Ə.Əsədovun və F.Oktayın Bakıda keçirilmiş Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında iqtisadi əməkdaşlıq üzrə birgə Hökumətlərarası Komissiyanın 10-cu iclasının nəticələrinə dair mətbuata bəyanatlarla çıxış ediblər.

# İslam adı altında ERMƏNİ SEVGİSİ

**Guya rəsmi Tehran Azərbaycanın suverenliyini və ərazi bütövlüyünü hər zaman dəstəkləyib, amma hadisələr göstərir ki, bu yalnız sözdə olub, əməldə yox. Müxtəlif səpkili təxribatçı bəyanatları ilə, sərhəd zonasında hərbi təlimlər keçirməsi ilə, əzələ nümayiş etdirməsi ilə, Azərbaycana qarşı aşkar şəkildə düşmən mövqedə olan İran, hələ də öz mövqeyində dəyişməz qalır və görünür ki, Ermənistana dəstəyi ilə şeytanın yolunu seçib, çünki Ermənistan öz təxribatçılığı ilə yalnız şeytani əməllər törədən bir dövlətdir. Şeytanın yanında olan isə İslam adı altında olsa da belə şeytan təəssübkeşliyi, erməni sevgisi aydın şəkildə özünü biruzə verir.**



İran vaxtaşırı terrorçu qruplaşmaları silahlandırırsa, deməli məqsədi sülh deyil, müharibəni qızışdırmaqdır. Rəsmi Tehran hətta terrorçuları maliyyələşdirir də, müharibəyə təhrik də edir. Müsəlman terrorçu ola bilməz və görünür, İran hökuməti hələ bunu dərk edə bilməyib. Dərk edə bilməyib ki, terrorçunun, qatilin, qətliam törədənin yanında olmaqla, bir dövlət kimi təkcə öz nüfuzuna zərbə vurmur, eləcə də dünyada "İslam terrorçuluğu" fikrini formalaşdırır. Lakin İslam dini humanist dəyərlərin daşıyıcısı olan bir mütərəqqi dindir, zorakılıq da, vəhşilik də bu dinə yaddır. Buna baxmayaraq özünü İslam dövləti kimi dünyaya sırımağa çalışan İran, Ermənistana, tarix boyu müsəlman əhaliyə divan tutan bir işğalçı ölkəyə qayğı göstərdiyini gizlətmir. Elə isə, deməli, düşmənimizlə, şeytani əməl sahibləri ilə özünü bir tərəzidə görür və elə ikrah doğuran da məhz budur.

Görürük ki, İran tərəfinin nümayəndləri vaxtaşırı Ermənistana yollanır, eləcə də bu ölkənin nümayəndələrini mütəmadi şəkildə qəbul edir. Ən çox ikrah doğuran isə, İran diplomatlarının ermənipərəst mövqeləridir ki, onlar bunu gizlətmək belə niyyətində görünmürlər. Təcavüzkara, hər zaman aranı qarışdıran şeytanlara qarşı olmaq, mübarizə aparmaq əvəzinə, utanmadan onlara dəstək də olurlar, şeytanla bir müstəvidə qərarlaşmağı məqbul hesab edirlər. "Yoldaşını göstər, kim olduğunu deyim", zərb məsəli düz yerinə düşür və əgər şeytana yoldaş kimi baxırlarsa, kimlikləri də bəlli olur, dövlətləri də.

Nordooz kəndi üzərindən keçəcək 7,2 kilometrlik Qacaran tunelini məhz İran şirkətlərinin inşa edəcəyi barədə İranın yollar və şəhərsalma naziri Rüstəm Qasemi ilə Ermənistanın ərazi idarəetmə və infrastruktur naziri Qnel Sanosyanın görüşündə razılıq əldə olunub. Maraqlıdır, "Şimal-Cənub" nəqliyyat dəhlizinin İran ərazisindən keçən 164 kilometrlik Qəzvin-Rəşt-Astara hissəsinin tikintisini 14 ildir uzadan İran Ermənistan üçün tunel tikmək qərarına gəlibmi? Qəzvin-Rəşt-Astara dəmir yolunun tikintisi üçün Azərbaycandan 500 milyon dollar həcmində kredit alan, amma hələ də sözügedən yolun tikintisini uzadan İran indi Ermənistanda tunel inşasına nə yaman həvəs göstərir? Vətəndaşlarının böyük əksəriyyəti müsəlman olan bir dövlətin deyil, xristian dövlətinin yanında olan dövlətə İslam dövləti deməyə belə adamın dili gəlmir. Bu, İslam adı altında şeytan təəssübkeşliyi, erməni sevgisidir, çünki bu dövlət həmişə olduğu kimi, yenə də ancaq müsəlmanların qanına susayan erməni ilə əlbirdir.

İslam əxlaqına və dəyərlərinə zidd siyasət yürüdən İran təcavüzkarın, terrorçunun, işğalçının yanında olmaqla, qatilləri, vəhşiləri, insanlığa sığmayan əmansız hərəkətlər törədənləri, soyqırımlar, qətliamlar edənləri dəstəkləməklə şeytanla bir müstəvidə olduğunu nümayişkəranə şəkildə göstərir. Bir dövlət ki, haqqın, ədalətin, yəni Azərbaycanın deyil, haqsızlığın, ikiüzlülüyün, ədalətsizliyin tərəfindədirsə, deməli həmin dövlət elə birbaşa şeytanın özünə xidmət edir, çünki həmin qaniçən əməllər yalnız şeytana məxsusdur. Maraqlıdır, hardansır bu erməni sevgisi və nəyə görədir?

İran hələ lap ötən əsrin birinci yarısından azərbaycanlılara qarşı olub və bu mövqeyini gizlətməyib də. Məsələ burasındadır ki, həmin dövrdə Güney Azərbaycanda milli-azadlıq zəminində baş tutan 3 inqilab İran üçün deyəsən dərs olmayıb. İyirmi birinci əsrin əvvəllərində Güney Azərbaycanda yaşayan soydaşlarımızın dəfələrlə molla rejiminə qarşı mübarizəyə qalxmasından da görünür ki, İran nəticə çıxara bilməyib. Soydaşlarımıza qarşı zorakılığa və işgəncələrə əl atan İran bununla təhlükənin sovuşduğu qənaətinə gəlibsə, bərk yanılıb. Əsrin əvvəllərində kütləvi etiraz aksiyalarına qarşı cəza tədbiri olaraq, 19 yaşlı azərbaycanlı tələbə qızı nümayişkaranə şəklidə edam edən İran, son günlər müşahidə edilən etraz aksiyalarından da görünür ki, bununla heç nəyə nail ola bilməyib. Təbrizdə, Tehranda, Urmiyada, Xoyda, Parsabadda, Meşkində, Sulduzda və İranın digər şəhərlərində minlərlə insanın qoşulduğu etiraz aksiyalarının dinc iştirakçılarına divan tutulsa da, 50 azərbaycanlı qətlə yetirilsə də, 600-dən çox etirazçı yaralansa da, 4000-dən artıq soydaşımız həbsxanalara atılsa da Güney Azərbaycandakı soydaşlarımızı qorxutmaq mümkün olmayıb və indi İranda müşahidə edilən etirazlar bunu təsdiq edir. Amma deyəsən bundan İran dövləti hələ də bir nəticə çıxarmayıb, halbuki bütün dünya doğru nəticə hasil edib, çünki İranın ermənipərəst mövqeyi, erməni sevgisi göz önündədir.

Əhalisinin təxminən 40%-ni türk kökənli azərbaycanlılar təşkil etdiyi halda, 87 milyon əhalisi olan İran, yalnız həmin ölkədə yaşayan 100 mindən də az sayda olan ermənilərə xüsusi imtiyazlar, xüsusi dəstək verir, hansıki bu dəstəyi erməni terrorçularına, erməni təcavüzkarlarına yalnız şeytanın özü göstərə bilərdi. Erməni təcavüzkarlarına, vəhşilərinə, qaniçənlərinə dəstək göstərən İranın özünü, əhalisinin böyük əksəriyyəti müsəlman olan Azərbaycana beləcə düşmən görməsi İslam dövlətinə xas olan hərəkət sayıla bilməz. Əvvəla ona görə ki, bir müsəlman öz müsəlman qardaşının qətlinə, özü də vəhşicəsinə öldürülməsinə razı olmamalıdır. Digər tərəfdən də, öldürmək, yaxud öldürənin yanında olmaq, qatilin, caninin, vəhşinin tərəfində olmaq İslam əxlaqı ilə ziddiyyət təşkil edir. Deməli, İran İslam dövləti adı altında erməni sevgisini gizlətmir və görünür heç bundan sonra da gizlətmək fikri yoxdur.

***İnam Hacıyev***

# DİN Zəfər Gününün II ildönümü ilə bağlı tədbir keçirib



**Akademik Milli Dram Teatrında Daxili İşlər Nazirliyi (DİN) tərəfindən Zəfər Gününün ikinci ildönümünə həsr olunan mərasim keçirilib. SİA-nın xəbərinə görə, tədbirdə 44 günlük Vətən müharibəsində iştirak etmiş DİN-in hərbi qulluqçuları və polis əməkdaşları da iştirak ediblər. Əvvəlcə respublikamızın suverenliyi, ərazi bütövlüyü uğrunda canından keçmiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.**





Dövlət Himni səsləndikdən sonra daxili işlər naziri general-polkovnik Vilayət Eyvazovun 8 noyabr - Zəfər Günü ilə əlaqədar tədbir iştirakçılarına ünvanladığı təbrikləri və xoş arzuları onların nəzərinə çatdırılıb.

Mərasimdə çıxış edən DİN Daxili Qoşunlarının komandanının müavini, general-mayor İnqilab Muradov Müzəffər Ali Baş Komandan İlham Əliyevin vahid komandanlığı altında dəmir yumruq kimi birləşən Silahlı Qüvvələrimiz, o cümlədən nazirliyin hərbi qulluqçularının və polis əməkdaşlarının Vətən müharibəsində şərəfli döyüş yolu keçdiyini vurğulayıb. Şəxsi heyətin Murovdağdan Şuşaya qədər gedən döyüşlərdə iştirak etdiyini qeyd edən məruzəçi torpaqların azad olunması zamanı 66 nəfərin şəhidlik zirvəsinə ucaldığını, 346 nəfərin yaralandığını, 4 nəfərin Vətən Müharibəsi Qəhrəmanı adına layiq görüldüyünü, minlərlə əməkdaşın isə orden və medallarla təltif olunduğunu deyib.

Daha sonra çıxış edən Din-in İdarə rəisi polis polkovniki Elçin Məmmədli qeyd edib ki, ölkə başçısının xüsusi diqqət və qayğısı ilə əhatə olunan hərbi qulluqçularımız və polis əməkdaşları bilik və bacarıqlarını, peşəkarlıqlarını artırmaqla onlara göstərilən bu etimadı doğrultmaq üçün səy və bacarıqlarını əsirgəmirlər.

Tədbirin davamında çıxış edənlər DİN-in "N" saylı hərbi hissəsinin Xüsusi Təyinatlı Dəstəsinin komandiri, "Zəfər" ordenli, kapitan Anar Mahmudov, "Füzulinin azad olunmasına görə" medalı ilə təltif edilən polis şöbəsinin bölük komandiri, polis mayoru Elçin Bəhmənov, "Şuşanın azad olunmasına görə" medalı ilə təltif edilən DİN-in Əlahiddə Çevik Polis Alayının polis nəfəri, kiçik serjant Kənan Sultanov və digərləri istər Birinci Qarabağ döyüşlərində, istərsə də 44 günlük Vətən müharibəsində DİN-in hərbi qulluqçularının və polis əməkdaşlarının ön cəbhənin müxtəlif istiqamətlərində işğalçı düşmənə qarşı mətinliklə döyüşdüklərini bildiriblər. Çıxışçılar işğaldan azad olunan ərazilərdə bu gün DİN-in hərbi qulluqçuları və polis əməkdaşlarının xidməti vəzifələrini böyük qürur hissi ilə davam etdirdiklərini məmnunluqla qeyd ediblər. Tədbirin sonunda xalq artisti Azər Paşa Nemətovun müəllifi və quruluşçu rejissoru olduğu "Zəfər yolu" tamaşası nümayiş etdirilib.

***Kəmalə Təyyarqızı***

# Şəhidlər ölməz, vətən bölünməz!

## 8 Noyabr-Zəfər Günü və YAP-ın təsis edilməsinin 30 illik yubileyi ilə əlaqədar olaraq Yasamal rayonunda şəhid ailələri ziyarət olunub

**8 Noyabr-Zəfər Günü və Yeni Azərbaycan Partiyasının təsis edilməsinin 30 illik yubileyi münasibəti ilə YAP Yasamal rayon təşkilatının sədri Bəxtiyar Nəbiyev, Azərbaycan Respublikası Müdafiə Sənayesi nazirinin müşaviri, "Mətbuat pr.40" (Azərbaycan Respublikası Müdafiə Sənayesi Nazirliyi) ünvanlı ərazi partiya təşkilatının sədri Əlibaba Əliyev, YAP Yasamal rayon təşkilatının əməkdaşları tərəfindən 44 günlük Vətən müharibəsi şəhidi Ağayev Şahin Azər oğlunun ailəsi ziyarət olunub.**





Təşkilat nümayəndələri şəhid ailəsinin qayğı və problemləri ilə maraqlanıb. YAP Yasamal rayon təşkilatının sədri Bəxtiyar Nəbiyev bildirib ki, Cənab Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Rəşadətli Azərbaycan Ordusunun 44 günlük Vətən müharibəsində əldə etdiyi şanlı Qələbə nəticəsində tarixdə əbədi yaşayacaq, dövlətimizi qalib dövlət, xalqımızı qalib xalq olaraq təsdiqləyən Zəfər salnaməmizi yazdı. Azərbaycan müharibəni hərbi-siyasi yollarla həll etməklə, öz torpaqlarının və taleyinin sahibi olduğunu bütün dünyaya sübut etdi. 44 günlük Vətən müharibəsi nəticəsində ordumuz torpaqlarımızı işğaldan azad etməklə yanaşı, həm də şəhidlərimizin qanını almış oldu. Şəhidlərimizin qisası döyüş meydanında alındı. Bu Qələbəni bizə bəxş edən qəhrəman əsgər və zabitlərimiz bizim qürur mənbəyimizdir. Onların qəhrəmanlığı, onların şücaəti, fədakarlığı artıq dastana çevrilib. Şəhidin ailə üzvləri göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya minnətdarlıqlarını ifadə ediblər. Həmçinin YAP Yasamal rayon təşkilatının əməkdaşları tərəfindən 44 günlük Vətən müharibəsi şəhidi Hacılı Feyruz Bəhruz oğlunun ailəsi ziyarət olunub.Təşkilat nümayəndələri şəhid ailəsinin qayğı və problemləri ilə maraqlanıb.

YAP Yasamal rayon təşkilatının sədri Bəxtiyar Nəbiyev bildirib ki, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 44 günlük Vətən müharibəsində şəhidlərimzin qanları, canları hesabına geri qaytarılan torpaqlarımızı və onların bizə əmanət etdikləri yadigarlarını, övladlarını göz bəbəyimiz kimi qorumaq bizim vətəndaşlıq, insanlıq borcumuzdur. Vətən, xalq yolunda canını fəda edən, həyatını qurban verən igid oğullarımız və qızlarımızla fəxr edir, qürur duyuruq!

Onlar öz vətənpərvərlik borclarını qətiyyətlə, böyük əzmlə yerinə yetirdilər. Şəhidlərimizin qanı ilə alınan torpaqlarda bu gün üç rəngli bayrağımız qürurla dalğalanır. Vətən uğrunda şəhidlik məqamına yüksələn şəhidlərimizin qəhrəmanlıqları, fədakarlıqları heç zaman unudulmayacaq. Onlar Azərbaycan xalqının əbədi yaşar ölməz qəhrəmanlarıdır.

Şəhidin ailə üzvləri göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya minnətdarlıqlarını ifadə ediblər. Qeyd edək ki, Cənab Prezident İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən, şəhid Hacılı Feyruz Bəhruz oğlu ölümündən sonra "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilib. Allah bütün şəhidlərimizə rəhmət eləsin!

***Nəzakət Ələddinqızı***



# MOLLANIN DOVŞAN SİĞƏSİ

RÖVŞƏN
rovsen.rasulov@mail.ru

**Tehranın başıəmmaməli rejiminin əlində olan idarəçilik "missiyasında" daha hansı "xarüqələr" yaradılmayıb ki... İslam dünyasının müqəddəsləri hesab edilən şəxsiyyətlərin ziyarətgahlarından yığılan pul-paraların Qərb ölkələrində yaşayan molla balalarının ciblərinə axmasından tutmuş qumar oynamalarına, içki içmələrinə, orgiya gecələri təşkil etmələrinə qədər bütün faktlar internet resurslarında hazırda da mövcuddur. Mələn, edam hökmü kəsən Tehranın baş hakiminin, Xoyun insanlara şallaqlama, falaqqa qərarları verən baş sərbazının, İsfahanın, Qumun "zina haramdır!" deyən imam xətiblərinin hansısa qohumları Amerikada, ya da Avropada zəngin həyat tərzi keçirir, ümumiyyətlə, İslam dininin yasaq buyurduğu bütün əməlləri gecəligündüzlü yaşayırlar. Necə deyərlər, gözdən və qulaqdan uzaqda...**

## Bir yaşlı, qoca, amma gözləri civil-civil civildəyən əmmaməli molla...

Gələk əsas məsələyə. Sən demə, İran adlanan yerin mövcud idarəçilik quruluşunun əslində fahişəliyi legitimləşdirən daha bir əməli uzun illərdir ki, tətbiq edilməkdədir. Bunun adına isə "siğə" deyilir. Məsələn, bir yaşlı, qoca, amma gözləri civil-civil civildəyən əmmaməli molla yolda getdiyi yerdə çox güclü ehtirasa gəlir və qarşısından keçən qadınlara "xor gözlə" baxmamaq üçün özünü verir siğəxanaya. Orada bəyəndiyi hər hansı qadını mənimsəmək məqsədi ilə siəğxananın qəzısına atüstü bir siğə yazdırır və keçir "iş başına...". Qoca molla bir neçə tümən ödəməklə çöldə-bayırda başqalarının xanımlarına "xor gözlə" baxmaması üçün 15 dəqiqəlik siğə vasitəsi ilə öldürür öz ehtirasını və beləliklə, "günahdan"-zaddan da uzaq qalır. Təzədən əmmaməsini qoyur başına, əbasını geyinir və əsasını da alır əlinə, çıxır-gedir insanlara ağıl qoymağa... Deyilənə görə bu cür "günahdan uzaq dayanma" mərasimlərini "mollaların dovşan siğəsi" də adlandırırlar. Başqa necə adlandırsınlar axı? Vur-tut 15-cə dəqiqə və şüttəmam...

## Nə deyəsən mollalara komfortlu həyat düzənləyən belə "hökumətə" ki..?

İndi gəl belə bir siğəxanaları olan bir məmləkətin digər özünüsübut cəhdlərinə inan. İnan ki, belə mollalar aydan-arı, sudan da durudurlar. Bədbəxt kasıb bir tikə çörəyinin dalınca qaçır, əli çörəyə çatmayanda etiraz edir, onu sərbazların qamçısı altında döydürən molla "əmilər" də siğə dalınca şütüyürlər. Nə deyəsən mollalara komfortlu həyat düzənləyən belə "hökumətə" ki..?

Allah səbr versin bu ölkədə yaşayan və axır ki, səbri daşan, haqq-ədalət tələb edən insanlara. Bir az da qayət etsələr ən azından, "dovşan siğəsi" edən molla rejimindən canları xilas olacaq...

P.S. Son günlər İran adlanan məmləkət şəhərlərindəki etirazçılar arasında yeni bir trend yaşanmaqdadır. Onlar əmmamə daşımağa layiq olmayan mollaların başlarındakı əmmamələrini vurubyerə salırlar. Bununla demək istəyirlər ki, müsəlmanlar üçün müqəddəs sayılan əmmamə onların başları üçün yad bir cisimdir. Yaxud, əmmamə paklığı "15 dəqiqəlik siğə mollalarının" başları ilə kirlədilməməlidir...

# Şuşa möcüzəsini yaradan Azərbaycan əsgəri



**İki il öncə, 2020-ci ilin 44 günlük Vətən müharibəsində əldə etdiyimiz Zəfərin ikinci ildönümünə artıq sayılı günlər qalır. Böyük Zəfərimizdən iki gün əvvəl Şuşa azad olundu. Noyabrın 8-də Milli ordumuzun qəhrəman əsgərləri möcüzələr diyarı Şuşanı elə möcüzəli şəkildə də işğalçılardan təmizləyib, xilas etdilər.**

Biz Şuşamızı Tanrının xüsusi zövqlə yaratdığı, Qarabağın baş tacı etdiyi, dağların sinəsinə sığdırdığı, heyrətamiz gözəlliklər, eyni zamanda bu gözəlliklər fonunda həm də möcüzəvi təbiət bəxşişi kimi tanıyırıq. El arasında belə bir söz var: Tanrının xoş saatına düşmək. Bax Şuşanın yaranması da Tanrının xoş zamanına düşüb. Çünki o, tək bir parça torpaq, bir məkan, yurd yeri deyil, o, həm də, sözün həqiqi mənasında, möcüzələr diyarıdır. Bu möcüzələr diyarının işğalı da, işğaldan azad olunması da elə bir möcüzə olmuşdur. Bu möcüzələrdən söhbət açaq...

## 28 il əvvəlki möcüzə

Şuşa azad olunanda 28 il yarım idi ki, əsarətdə- düşmənin murdar əlində idi. 28 ilin əvvəlində o, bir təsadüf nəticəsində işğal olunmuşdu. Yadımdadır, o zamanlar hamı "bu, bir möcüzədir", deyirdi. Çünki bu sözləri söyləyən insanlar dəfələrlə Şuşada olmuşdular. Onun hansı coğrafi mövqedə yerləşdiyini, düşmənin onu heç vaxt işğal edə bilməyəcəyini yaxşı bilirdilər. Bəs necə olmuşdu ki, Şuşa belə asanlıqla işğal olunmuşdu? Düşmən bunu necə bacarmışdı?

Şuşanın işğalı barədə televiziya vasitəsilə məlumat alan insanların hər biri böyük kədər, qəm-qüssə içərisində bunun nə cür baş verdiyini müzakirə edir, bir qənaətə gələ bilmirdilər. Gələ bilməzdilər də. Çünki hələ sonralar Şuşanın satılması, hazır tikə kimi düşmənin ağzına qoyulması bilinəcəkdi. Bilinəcəkdi ki, dövlətimizin ozamankı səriştəsiz, vəzifəpərəst ünsürləri özlərini qorumaq, vəzifədə qalmaq üçün bir oyuna giriblər. Bu, torpaq oyunu idi. Azərbaycanın qədim, əzəli torpaqları qoyulmuşdu bu oyuna. Oyundan erməni qalib olaraq çıxacaqdı. Bu, əvvəlcədən hazırlanmış plana görə belə idi. Uduzan isə səriştəsiz rəhbərlərin sayəsində xalqımız olmalı idi və oldu da. Bir-birinin ardınca torpaq idi ki, gedirdi, düşmənin tapdağı altına verilirdi. Baxmayaraq ki, minlərlə şəhidimiz, qazimiz oldu, bu torpaqları son nəfəslərinədək müdafiə etdilər, lakin bir faydası olmadı. Çünki plan həyata keçirilirdi. Və biz bu planda çoxdan uduzan tərəf idik. Bütün bunlardan isə xalq xəbərsizdi. Xəbəri olacaqdı, çox yaxın zamanda olacaqdı. Lakin o zaman torpaqlarımız çoxdan işğal altına verilmiş olacaqdı.

Şuşanın müdafiəsini Tanrı özü onu yaradarkən bəxş etmişdi. Şuşa sanki öz kürsüsündə oturan xan, düşmən isə onun ətrafındakılar idi. Bax elə möcüzə də burada idi ki, bu ətraf xanı öz məqamından necə endirə bilərdi? Təbii ki, yalnız arxadan vurulan zərbə və satqınlıqla... Elə insanların Şuşanın işğalına möcüzə kimi baxması da bu səbəblərdən idi. Çünki o, belə asanlıqla alına bilməzdi.

Bəli, 2020-ci ildə artıq düz 28 il yarım idi ki, Şuşa bizim əlimizdən satqınlıqla getmişdi.

## 28 il sonrakı möcüzə

İşğal altındakı torpaqlarımızı hər zaman təəssüf hissi ilə anan, onların geri qaytarılmasına böyük inam bəsləyən ümummilli liderimiz ömrünün sonunadək bu sözləri dedi: "Hər bir azərbaycanlı bilməlidir və hazır olmalıdır ki, əgər bizim bütün cəhdlərimiz nəticəsə, nəyin bahasına olursa-olsun, canımızın, qanımızın bahasına olsa da, işğal olunmuş torpaqlarımızı azad etməli, Azərbaycanın sərhədlərinin toxunulmazlığını, ərazi bütövlüyünü təmin etməliyik. Bu, qarşımızda duran vəzifədir və biz onu nəyin bahasına olur-olsun yerinə yetirəcəyik".

Ulu öndər torpaqlarımızın geri alınması üçün beynəlxalq aləmdə böyükmiqyaslı işlər həyata keçirdi. Lakin dünya susdu. 2020-ci ilə qədərki 17 ildə dövlətimizin başçısı da eyni ulu öndər kimi bu istiqamətdə danışıqlar apardı, Qarabağ problemini beynəlxalq səviyyədə həll etməyə, düşmənin sülh yolu ilə torpaqlarımızdan çıxarılmasına çalışdı. Lakin dünya yenə də susdu. Mənfur düşmən isə hələ üstəlik yeni ərazilər işğal etmək xülyasına düşdü. Belə olanda isə ulu öndərimizin həm mənəvi, həm də siyasi varisi Ali Baş Komandanımızın rəhbərliyi ilə Azərbaycan Ordusu düşməni yerlərində oturtmağı bacardı. Şəhər, qəsəbə və kəndlərimiz qarış-qarış, kənd-kənd geri alındı. Biz övladlarımızı itirdik, lakin onların qanı ilə Azərbaycan tarixinin yeni səhifələrini yazdıq.

Bu səhifələrdə Şuşanın işğaldan azad olunması xüsusi yer tutur. Çünki bir möcüzə baş vermişdi. Düşmən əlində olan Şuşa böyük qətiyyətlə də qorunurdu. Düşmən ötən 28 ildə Şuşanın bütün sərvətlərinin, hüsnünün sahibinə çevrilmişdi. Onlar üçün Şuşa həqiqətən də möcüzə idi. Ömürlərində rastlaşmadıqları, görmədikləri bir möcüzə. Rahatlıqla, döyüşmədən əldə etdikləri bu möcüzəni əsla itirmək fikrində də deyildilər. Lakin gözləmədikləri yeni bir möcüzə baş verməkdə idi. 44 günlük Vətən Müharibəsinin son 10 günlüyündə qarşılaşacaqdılar bu möcüzə ilə. Və qarşılaşdılar da. Müharibədən sonra düşmən bəzi mətbuat orqanlarına müsahibələrində, söhbətlərində Şuşada möcüzə ilə üzləşdiklərini açıqca etiraf etmişlər. Onlar belə söyləyirlər ki, heç gözləmədiyimiz halda bir də gördük ki, Azərbaycan əsgəri Şuşadadır. Onlar buraya haradan, necə gəlmişdilər, biz onu düşünürdük.

Azərbaycan əsgəri Şuşaya addım-addım, gecə-gündüz sürünə-sürünə, sinəsini dağadaşa sürtə-sürtə, əl-ayaqlarında daşlar yaralar açaça gəlib çıxmışdı. Bu, əsgərimizin nəyə qadir olmasının göstəricisi idi. Bu, ürəyi torpaq sevgisi ilə dolu olan azərbaycanlı övladlarının əlbəyaxa döyüşü, texnikasız, silah-sursatsız bir taktikası idi. Bu, Milli Ordumuzun gücünün, Ali Baş Komandanımızın sərkərdəlik məharətinin, həmrəyliyimizin nümayişi idi. Bu barədə Şuşa şəhərində Dünya Azərbaycanlılarının V Qurultayında çıxış edən cənab İlham Əliyev demişdir: ... Münaqişəyə son qoyan Azərbaycan əsgəri oldu, qəhrəman Azərbaycan əsgəri. Müharibənin son hadisələri məhz burada - Şuşada baş vermişdir.

Sıldırım qayalara dırmaşaraq bizim qəhrəman əsgərlərimiz, zabitlərimiz demək olar ki, əlbəyaxa döyüşlərdə burada topla, tankla, artilleriya ilə silahlanmış Ermənistan ordusuna qalib gəldilər. Şuşa Zəfərindən sonra faktiki olaraq Ermənistan cəmi bir gün dirəniş, - əgər buna dirəniş demək mümkündürsə, - göstərməyə cəhd etmişdir və noyabrın 9-da artıq kapitulyasiya aktını imzalamağa hazır olduğunu bildirmişdir.

8 noyabr 2020-ci il. Qarabağın döyünən ürəyi Şuşanın azadlıq müjdəsini xalqına çatdıran Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev: Mən bu gün, eyni zamanda, ulu öndər Heydər Əliyevin məzarını ziyarət etdim, onun ruhu qarşısında baş əydim. Ürəyimdə dedim, xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim. Şuşanı azad etdik! Bu, böyük Qələbədir! Şəhidlərimizin, Ulu Öndərin ruhu şaddır bu gün! Gözün aydın olsun Azərbaycan! Gözünüz aydın olsun, dünya azərbaycanlıları! Mən bu günlərdə dünya azərbaycanlılarından və Azərbaycanda yaşayan insanlardan minlərlə məktub alıram. Hər gün minlərlə məktub. Sadəcə olaraq, heyfsilənirəm ki, bütün bu məktubları oxuya bilmirəm. Sadəcə olaraq, vaxt çatmır. Nə qədər gözəl sözlər, nə qədər böyük dəstək göstərilir. Bu gün biz bir daha bütün dünyaya sübut edirik ki, biz böyük xalqıq, biz məğrur xalqıq! Biz yenilməz xalqıq! Biz döyüş meydanında düşmənə yerini göstəririk!

## Şuşanın azadlığı həm də alınmaz qala olduğunu sübut etdi

Tarix də göstərib, zaman da sübut edib ki, Şuşanın işğalı mümkün olmayan məsələdir. Bəs necə olmuşdu ki, millətdən, Vətəndən, ordudan məhrum ermənilər bunu edə bilmişdilər? Elə yuxarıda bu məsələyə yenidən qayıtmaqda məqsədim bir daha xatırlatmaq idi ki, Şuşa işğal oluna bilməzdi. Tarixə nəzər salaq: Feodal müharibələri dövründə Şuşa bir neçə dəfə tarixin sınağından uğurla çıxaraq qalib gəlib. Bu qalaya hücum edən Məhəmməd Həsən xan Qacar, Fətəli xan, Ağa Məhəmməd şah Qacar onu ala bilməmişlər.

1747-ci ildə Pənahəli xan özünü bu torpaqların xanı elan edir və xanlıq ərazisini düşmən hücumlarından qorumaq məqsədilə möhkəmmə qala tikdirməyi qərara alır. 1748-ci ildə Bayat qalası, 1752-ci ildə isə Şahbulaq qalası inşa edilmişdir. Lakin Pənahəli xan müharibələr dövründə əhalinin sığınması üçün daha etibarlı, üç tərəfi keçilməz sıldırım qayalarla əhatə olunmuş əlçatmaz dağ yaylasında yeni bir qala ucaltmağı qərara almışdır. Yeni qala ilk illərdə öz banisinin adı ilə "Pənahabad", sonralar isə "Şuşa" adlandırılmağa başlanmışdır.

Beləliklə, tarixə, sərkərdələrə meydan oxuyan Şuşa alına bilməzdi, o, 1992-ci ildə düşmənə verilmişdi və 2020-ci ildə tarix yazan igidlərimiz tərəfindən geri alındı. O tək geri alınmadı, həm də alınmaz qala olduğunu sübuta yetirdi.

## Şuşa Azərbaycan şəhəridir

1992-ci il mayın 8-də Ermənistanın silahlı quldur dəstələri işğala məruz qoyduqları Şuşada bütün beynəlxalq hüquq normalarını pozaraq mədəniyyət nümunələrinə qarşı vandalizm aktları törətmiş və 600-ə yaxın tarixi-memarlıq abidəsini, o cümlədən Pənahəli xanın sarayını, Yuxarı Gövhər ağa və Aşağı Gövhər ağa məscidlərini, Xurşidbanu Natəvanın evini, Molla Pənah Vaqifin məqbərəsini yerləyeksan etmiş, 7 məktəbəqədər uşaq müəssisəsini, 22 ümumtəhsil məktəbini, mədəni-maarif, kənd təsərrüfatı texnikumlarını, orta ixtisas musiqi məktəbini, 8 mədəniyyət evini, 22 klubu, 31 kitabxananı, 2 kinoteatrı, 8 muzeyi, o cümlədən Şuşa Tarix Muzeyini, Azərbaycan Xalça Muzeyinin filialını və xalq tətbiqi sənəti muzeyini, Qarabağ Dövlət Tarix Muzeyini, turist bazasını, Qafqazda yeganə Şərq musiqi alətləri fabrikini dağıtmış, buradakı nadir sənət incilərini talamış və məhv etmişlər. Şəhərin tarixi muzeyinin 5 minədək əşyası, Azərbaycan Xalçası və Xalq Tətbiqi Sənəti Dövlət Muzeyinin Şuşa filialı, Dövlət Qarabağ Tarixi Muzeyinin 1000-dək əşyası, peşəkar Azərbaycan musiqisinin banisi, bəstəkar Üzeyir Hacıbəyovun (300-dən çox əşya), müğənni Bülbülün (400-dək əşya), musiqiçi və rəssam Mir Möhsün Nəvvabın (100-dən çox əşya) xatirə muzeylərinin fondları qarət edilmişdir.

Dövlətimizin başçısı cənab İlham Əliyev Şuşa şəhərində keçirilən Dünya Azərbaycanlılarının V Qurultayında bu barədə deyirdi: Bu gün Şuşaya gələn hər bir insan, hər bir azərbaycanlı görür ki, Şuşa Azərbaycan şəhəridir. Əgər belə olmasaydı, Şuşa belə ağır vəziyyətdə olmazdı. Siz, indi buraya gələn qonaqlar müharibədən ilyarım keçəndən sonra gəlirsiniz. Əgər müharibədən dərhal sonra gəlsəydiniz, görərdiniz ki, nə vəziyyətdədir. Hələ də dağılmış vəziyyətdədir. Ancaq Şuşa bərpa olunur, Şuşa dirçəlir və Şuşanın dirçəlməsi ilə bağlı gedən işlər çox genişmiqyaslıdır və bu haqda sizə məlumat veriləcək... Əgər bu şəhər ermənilərə mənsub olsaydı, bu günə qoyardılarmı bunu? Burada cəmi 1800 adam yaşayırdı. Özü də onların 90 faizi hərbçilər və onların ailə üzvləri idi. Burada bir dənə də salamat tarixi bina qalmamışdır. Ermənilər 17 bulağın 17-sini də qurutmuşdular, məscidlərimizi təhqir etmişdilər, sökmüşdülər, saraylarımızı sökmüşdülər. Yəni, bir dənə də burada yeni bir bina tikilməmişdi. Sadəcə olaraq, bizim təbii sərvətlərimizi istismar ediblər və təkcə Şuşa yox, bütün digər şəhərlər də eyni vəziyyətdədir.

Cənab İlham Əliyev fikirlərini belə davam etdirirdi: Tamamilə dağılmış Ağdamı xarici ekspertlər, jurnalistlər Xirosimaya bənzədirlər. Bəli, Xirosima atom bombası nəticəsində məhv edildi. Ağdam və digər şəhərlər erməni vandallığı nəticəsində məhv edildi. Birinci Qarabağ müharibəsi dayanandan sonra 30 il ərzində binaları daş-daş sökük, daşıyıb satmışdılar və beynəlxalq təşkilatların hesabatlarında bu, var. Qəbirləri qazırdılar, ölülərin qızıl dişlərini çıxarırdılar. Yəni, Ermənistan və erməni xalqı bu vəhşiliyə görə dünya miqyasında rəzil oldu. Ona görə gələn hər qonaq, azad edilmiş torpaqlara gedən hər qonaq erməni vəhşiliyini görür və görməlidir. Görməlidir ki, biz təkcə işğalçını yox, faşistləri məhv etdik. Onların Birinci Qarabağ müharibəsində, İkinci Qarabağ müharibəsində, iki müharibə arasındakı dövr ərzində bütün əməlləri faşist əməlləridir. Bizim dinc şəhərlərimizi müharibə dövründə ballistik raketlərlə atəşə tutmaq, insanları məhv etmək faşizm deyil, bəs nədir? "Toсka-U", "SCUD", "İskəndər-M" raketi ilə Şuşa vurulmuşdu. Qar əriyəndən sonra Şuşada, şəhərin mərkəzində "İskəndər-M" raketinin qalıqları aşkarlanmışdır və bir daha biz sübut etdik ki, Ermənistan bu ölümcül silahdan, qadağan edilmiş silahdan və onlarda heç cür olmayan silahdan istifadə edib. Buna inanmayanlar gəlib Hərbi Qənimətlər Parkında "İskəndər-M" raketinin qalıqlarını görə bilərlər.

Bəli, Şuşa Azərbaycan şəhəridir. Azərbaycan ordusu da bu şəhərin düşməndən azad olunması üçün mübarizə apardı və doğma şəhərini xilas etdi. Şuşa öz anasına-Azərbaycana qayıtdı.

## Əziz Şuşa, biz səni dirçəldəcəyik!

Ölkəmizin rəhbəri dəmir yumruğunu düşmənin başına endirməklə Qarabağa, onun baş tacı Şuşaya Zəfər gətirdi: "Bu günlərdə dəfələrlə Azərbaycan xalqına müraciət edərək düşmənə yumruq göstərmişdim, yumruq göstərmişdim. Demişdim ki, bu yumruq elə-belə yumruq deyil. Bu, dəmir yumruqdur. Bu dəmir yumruqla düşmənin başını əzirik və əzəcəyik! Eyni zamanda, bu yumruq birliyimizin rəmzidir. Bax, bu gün Azərbaycan xalqı bu yumruq kimi birləşib! Həmişə belə olacaq! Bu birlik əbədi olacaq! Bu birlik bizə gələcəkdə də bütün vəzifələri icra etmək üçün imkan yaradacaq. Mən bütün bu illər ərzində - 17 il ərzində Azərbaycan xalqının dəstəyini hiss etmişəm, görmüşəm, inamını, mənə olan xoş münasibəti görmüşəm. Bu, mənə güc verir. Bu, mənim siyasətim üçün əvəzolunmaz dəstəkdir. Həmişə Azərbaycan xalqını əmin edirdim ki, mən Vətənə, doğma xalqıma ləyaqətlə, sədaqətlə xidmət edəcəyəm. Şadam ki, sözümün üstündə durmuşam. Həmişə olduğu kimi, sözümə sadiq olmuşam.

Bu tarixi bir gündə Azərbaycan xalqına bu müjdəni vermək mənim həyatımda bəlkə də ən xoşbəxt günlərimdən biridir.

Əziz Şuşa, sən azadsan!
Əziz Şuşa, biz qayıtmışıq!
Əziz Şuşa, biz səni dirçəldəcəyik!
Şuşa bizimdir! Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!".

Şuşanın azadlığından sonra Cıdır düzündə "Xarıbülbül" Musiqi Festivalının keçirilməsi düşmənin bağrına dağ çəkdi. Azərbaycan musiqisinin heyrətamiz səsi dağ-daşına yayıldıqca elə bil oyandı Şuşa, təşnəsi olduğu bu səslə sanki özünə qayıtdı. Bu səs düşmənin qulağına yara oldu. Bu səs Cıdır düzündən düşmənin murdar ayaqlarının izlərini sildi.

Daha sonra Molla Pənah Vaqifin muzey-məqbərə kompleksinin açılışı, "Vaqif Poeziya Günləri" nin keçirilməsi, Natəvanın bulağının bərpası, Zəfər yolu, elektrik enerjisi ilə təminatının yaxılaşdırılması və digər tədbirlərin, ən əsası isə Dünya Azərbaycanlılarının V Qurultayının Şuşada keçirilməsi, hər biri yaxınlıqdakı düşmənin göz dağına çevrildi.

Şuşanın Azərbaycanın Mədəniyyət Paytaxtı elan edilməsi, 2022-ci ilin "Şuşa ili" olması bizim qürurumuz, düşməninsə ölümüdür.

Bu qədim yurd indi novrağını yaşayır. Başını tik tutub, azadlığı ilə qürur duyur. Sənə başını bax belə dik tutmaq yaraşır, Şuşa. Ey Qarabağın baş tacı, bundan sonra ta sən hər zaman belə qürurla yaşayacaqsan. Çünki bu gün dünyanın bəhs etdiyi Azərbaycanın bir yurdusan. Çünki sənin arxanda Ali Baş Komandanımız və Milli Ordumuz dayanır. Nə qədər ki, Azərbaycan var, sənin hər zaman üzün güləcək, Şuşa. Çünki bütün torpaqlarımız qalib ölkənin qalib ordusunun qoruması altındadır.

***Mətanət Məmmədova***



**ANALİTİK + AKTUAL**

# "44"-lük şillə xatırlatması - ilin sonuna çox az qaldı...

## Yaxud, Bakı üçün böyük bir HEÇ nədir?







Oktyabrın 30-da Xankəndinin mərkəzi meydanında kütləvi aksiya keçirməklə Qarabağdakı separatçı rejim ünsürləri növbəti dəfə sübut etdilər ki, onlar regionda sülhün bərqərar olması üçün, revanşizm xislətləri daxil - əllərində olan-qalan bütün resurslarını işə salacaqlar. Hətta belə desək, həmin mitinq sovet illərindəki məcburi kütləvi tədbirə qatılma tələbi ilə paralellik təşkil etdi. Məktəblərdən, qanunsuz hərbi hissələrdən, müxtəlif separatçı idarələrdən və s. yerlərdən gətirilən insanların demək olar ki, heç biri sözdə "kütləvi mitinqin" uğur qazanacağına ümid etmirdilər.

### Revanşizmin son çırpınışları

Onlar çox gözəl dərk edirlər ki, artıq Bakı bundan sonra hər hansı oyunbazlıqlara daha əvvəlkilər kimi səbr göstərməyəcək. Məhz bu qorxu, bu hürkü separatçı rejimə rəhbərlik edən quldurları ciddi şəkildə təlaşlandırır. Əbəs deyil ki, bu gün Qarabağdakı cinayətkar rejimə dəstək verən Ermənistan siyasi dairələri də öz kirli işlərini görürlər. Əsas məsələ isə "Qarabağ ermənilərinin öz müqəddəratlarını təyin etmələri" üzərinə yönəldilib.

Məsələn, Ermənistan parlamentinin "Hayastan" fraksiyasının daşnak təmsilçisi İşxan Saqatelyan bildirib: "Artsaxın" hüquqlarına məhdudiyyət qoyulan istənilən sənən tərəfimizdən məhv ediləcək, bu qəbulolunmazdır və biz bütün vasitələrdən istifadə etməklə ona qarşı mübarizə aparacağıq. Hansı variantdan asılı olmayaraq - Amerikalı, Rusiya, Çin ya da Hindistan - onların heç biri əhəmiyyət kəsb etmir".

Saqatelyan bildirib ki, Nikol Paşinyanın təkbaşına erməni xalqının taleyini həll etmək hüququ və mandatı yoxdur. "Biz bir çox dəfə demişik ki, burada yalnız "Artsax" məsələsi deyil, həm də Ermənistanın mövcudluğu dayanır. Bu kloun bizim ölkəmiz və xalqımızla bağlı nə edirsə o məhvə gedir, bunun qarşısını almaq mütləqdir", deyə revanşist daşnak ünsürü bildirib.

### Sonrakı oyunbazlıq məqsədləri də məlumdur - bütün dünyaya "qoymayın, genosidə uğrayırıq" bağırtılarını yaymaq üçün növbəti planlı prosesə doğru hərəkətə keçmək...

Məhz bu baxımdan, Xankəndidəki "kütləvi mitinqin" iştirakçıları arasında Ermənistandan da insanların zorla gətirilməsi məsələsi dayana bilər. Artıq bu haqda müxtəlif erməni mənbələri də yazırlar. Hələlik isə son aylarını, günlərini yaşayan separatçı rejim hələ də ümid edir ki, onlar nəticə etibarı ilə hansısa uğur qazanacaqlar. Amma reallığa qalanda nəinki Qarabağdakı ermənilərin həyatları, o cümlədən, Ermənistanın mövcudluğu get-gedə təhlükə altına atılır. Revanşistlər əsas günahkarların özləri olduqlarını anlamağa məhkumdurlar. Daha dəqiq desək, quldur və daşnak xislətli revanşist toplum öz məqsədlərinə çatmaq üçün hətta proseslərdən bəzən sadə erməniləri belə odun-közün altına atmaqdan çəkinmirlər. Sonrakı oyunbazlıq məqsədləri də məlumdur - bütün dünyaya "qoymayın, genosidə uğrayırıq" bağırtılarını yaymaq üçün növbəti planlı prosesə doğru hərəkətə keçmək...

Əgər separatçılar Rusiya sülhməramlıları kontingentinə sığınaraq düşünürlərsə ki, onlara gözün üzərində qaşın var deyən olmayacaq, bu dəfə də yanılırlar. Unutmasınlar ki, 44 günlük müharibədən sonra Azərbaycan Silahlı Qüvvələri bir neçə dəfə uğurlu antiterror əməliyyatları apararaq mövqe dəqiqləşdirmələrini realizə ediblər. Artıq Xankəndi daxil, cinayətkar rejimin bütün hərəkətləri tam nəzarət altındadır!

### Azərbaycan Prezidentinin Praqadakı bəyanatı daim qüvvədədir!

Bəli, o ola bilər ki, hazırda separatizmə və işğalçılığa açıq dəstək göstərən Fransanın siyasi dairələri, habelə Rusiya TV-lərindəki anti-Azərbaycan xarakterli sərsəmləmələrin artması onların öz təbirlərincə Bakıya təzyiq kimi göstərilə bilər. Amma Bakı bunu təzyiq kimi görürmü? Ola bilər ki, təzyiqə cəhd kimi görür, amma bütün bunların Bakı üçün böyük bir HEÇ olması danılmaz faktdır!

Azərbaycan Prezidenti hələ Praqa görüşlərində açıq-aydın bəyan etmişdi ki, Qarabağ erməniləri Azərbaycanın tam hüquqlu vətəndaşlarıdırlar və əgər ölkəmizin qanunları altında yaşamaq istəyirlərsə heç bir problem yoxdur, amma bunu istəmirlərsə, yolları Laçın dəhlizindən o tərəfə doğru - Ermənistan istiqamətində açıqdır. Yəni Azərbaycanın suveren ərazilərində ikinci erməni dövlətinin olması əsla qəbuledilməzdir və buna imkan verilməyəcək də!

Xankəndidəki son çırpınışlar isə batarkən saman çöpündən yapışmaq cəhdinə, yaxud bir tərəfdən hürən, digər tərəfdən isə quyruq bulayan köpək misalına daha çox bənzəyir. Bu çırpınışların isə əlbəttə ki, nəticəsiz qalacağını bəri başdan söyləyə bilərik. Uzağı ilin sonuna qədər bunu görəcəyik...

***Rövşən RƏSULOV***

***P.S. Yeri gəlmişkən, "mitinqdəki" şüarlar da 1988-ci ildəki separatizm və ekstremizm şüarlarının təkrarı idi. Görünür, ilin sonuna qədər ağıllanmasalar "44"-lük şillənin xatırladılmasına ehtiyac yaranacaq...***

# Yeni Azərbaycan Partiyası - 30

# YAP-30

## O dövrün təəssüratları

### Qarabağdan başlayım

1988-ci il yanvarın ilk günlərini Moskvada keçirirdim. Yaxınlarımın dəvətilə yeni il ziyafətində iştirak etdim və onların xahişi ilə bir neçə sağlıq dedim. 30-32 yaşında olan iki rus gənci mənə yaxınlaşıb ibrətamiz şağlıqlara görə təşəkkür etdilər. Onlar mənim uzun illər təhsil sahəsində rəhbər vəzifələrdə çalışdığımı artıq bilirdilər. Məlum oldu ki, SSRİ Ali Sovetində işləyir, Azərbaycana aid təşkilati məsələlər üzrə məsuldurlar. Aramızda səmimi ünsiyyət yarandı, söhbət əsnasında ümumi tanışlarımızı xatırladıq, SSRİ-də cərəyan edən proseslərə toxunduq. Bir az keçmiş həmsöhbətlərimdən biri təxminən bunları dedi: "Doğrusu, biz sizi əsla anlamırıq. Ali Sovetə hər gün Dağlıq Qarabağın ermənilərindən xeyli sayda məktublar gəlir. Bakıdan, Kirovabaddan (indiki Gəncə - A.C.), digər yerlərdən də eyni məzmunlu müraciətlər alırıq. Məğzi? DQMV (Dağlıq Qarabağ Muxtar Vilayəti - A.C.) Ermənistanın tərkibinə verilsin. Sizlərdən isə buna heç bir reaksiya yoxdur". Çox həyəcanlandım. Mənə, Bakıda yaşayana, ölkənin rəhbər orqanlarında rəhbər vəzifələrdə çalışan dost-tanışları, qohumları ilə daim əlaqədə olana, geniş məlumatlılığı ilə öyünənə Moskvada təsadüfi görüş zamanı ağlasığmaz xəbər verilir. Sən demə, Azərbaycanda yaşayan ermənilərin bir qismi altdan-altdan işə başlamış, hədsiz dərəcədə sevdiyim Dağlıq Qarabağımı, ata-baba yurdumu, dünyaya gəldiyim Xankəndini (o vaxt - Stepanakert), bütöv DQMV torpaqlarını Ermənistana birləşdirmək iddiasındadırlar! Yeni tanışlarım Qorbaçovun məsləhətçisi Aqanbekyanın Fransanın "Humanite" qəzetinə verdiyi bədnam müsahibəsinə də toxunaraq, hərəkətə gəlməyimizin vacibliyinə işarə etdilər. Onlara dediklərim təxminən bu oldu: "Qəti əminəm ki, DQMV heç vaxt Ermənistana verilməyəcək! Azərbaycanlılar çox mehriban və təmkinli xalqdır. Bizim mənliyimizə toxunularsa, ermənilərin Qarabağ torpaqlarımızda gözü olarsa, peşmançılığı elə özləri çəkəcək!"



*Asif Cahangirov, YAP Veteranlar Şurasının üzvü, əməkdar müəllim*

2 gündən sonra Bakıya qayıdıb dərhal Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin şöbə müdirinin müavini ilə görüşüb üzücü məlumatları çatdırdım. Bir neçə gündən sonra o, mənə zəng edib dedi ki, narahatçılığa ciddi əsas yoxdur, hər şey nəzarətdədir(?!) .. Cəmi bir aydan sonra, fevralın 8-də Xankəndidə erməni separatçıları ilk mitinqlərini keçirdilər. Fevralın 20-də isə rəsmi qaydada Azərbaycanın tərkibindən çıxıb Ermənistanla birləşmək haqqında qərar qəbul etdilər.




### Dəhşətli 1988-1992-ci illər

Həmin illərdə nələr çəkdiyimiz o dövrdə yaşamış insanların xatirəsindən heç vaxt silinməyəcək. 1987-nin dekabrından azərbaycanlıların Emənistanın Qafan rayonundan qovulması, 1988-ci ilin yanvarından isə doğma ocaqlarından didərgin düşmüşlərin sayının günbəgün, həndəsi silsilə ilə artması... Növbəti 4-5 ildə Xankəndidən, Qarabağın dağlıq hissəsindən, sonradan isə işğal olunmuş rayonlardan məcburi köçkün düşmüş azərbaycanlıların, kürdlərin, rusların, ləzgilərin Bakıda, digər yaşayış məntəqələrində yerləşdirilməsi... Onların işlə təmin olunması, uşaqlarının təhsilə cəlb edilməsi... Ən dəhşətlisi isə - idarəetmə orqanlarına rəhbərlik edənlərin böyük təmkinlə hər bir qaçqın, köçkün düşmüş müəllimin, valideynin fəlakətli, dərdli danışıqlarını dinləməsi. Bəzən sutkanın 24 saatı belə kifayət etmirdi... Həqiqətən çox ağır, həyəcanlı, qeyri-müəyyən illər idi. Xatirələrimdə xeyli sayda hadisələr, tarixi məqamlar canlanır. Bəzilərini sadalayım:

Qarabağ hərəkatı, çoxsaylı mitinqlər, müstəqillik çağırışları...

20 yanvar, Sumqayıt, Xocalı, Şuşa...

Hakimiyyət böhranları...

"Xalq cəbhəsi" hakimiyyəti...

Ümidsizlik...

### Ümidsizlik

Səmimi deyirəm, "Xalq cəbhəsi"nin hakimiyyətə gəlməsini alqışlayanlardan biri də mən olmuşam. Baxmayaraq ki, hərəkatın təşkilatlanma dövründə onun başında duranların bəziləri haqqında qulağıma dəfələrlə mənfi rəylər çatırdı. Elə özüm də, Bakı Şəhər Baş Təhsil İdarəsinin (BŞTİ) rəisi olaraq, 1989-1992-ci illərdə bir neçə rayon təşkilatının rəhbərləri ilə üz-üzə gəlmiş, hədə-qorxulara məruz qalmışdım. 1992-ci ilin iyununda keçirilmiş prezident seçkilərindən sonra çoxlarımız Azərbaycanın parlaq gələcəyinə böyük ümidlər bəsləyirdik. İlk günlərdə düşünürdüm ki, "Cəbhə" hakimiyyətinin səhvləri bilməməzlikdən, dövlət idarəetməsi sahəsindəki təcrübəsizlikdən irəli gəlir və problemlər qısa müddətdə aradan qaldırılacaqdır. Lakin bəzi müsbət addımları (ali məktəblərə test üsulu ilə qəbul, ilk Təhsil qanunu və s.) çıxmaqla, vəziyyət nəinki dəyişmədi, naşılıq daha geniş vüsət almağa başladı. İstər ölkə səviyyəsində, istərsə də rayon və şəhərlərdə hərc-mərclik baş alıb gedirdi. Bakı öz paytaxt simasını itirmişdi. Hamı qorxu içində yaşayırdı. Demək olar ki, axşamlar, qaranlıq düşdükdə şəhərin küçələri, parkları boşalırdı. Üstəgəl Qarabağ faciəsi... Mənə doğma olan təhsil sahəsini götürək. Bakı rayonlarının yeni rəhbərliyindən BŞTİ-yə arasıkəsilmədən təqdimatlar daxil olurdu. Onlardan bir neçəsini açıqlayım. Tələblərdən biri bu idi ki, böyük nüfuza malik direktoru işdən çıxarıb, yerinə həmin məktəbdə çalışan "cəbhəçi" müəllimi təyin edim. Ömürboyu müsiqi məktəbində işləmiş tar müəlliminin tanınmış bir internat məkəbinin direktoru vəzifəsinə əmrini verim. İxtisasca mühəndis olan texnika elmləri namizədinin rayon təhsil şöbəsinin müdiri vəzifəsinə təyinatını rəsmiləşdirim... Əlbəttə, bu səpkidən olan tələbtəklifləri əsaslandırılmış şəkildə rədd etdikdə mənə olan münasibət pisləşir, narazılıq çoxalırdı.

### Çıxış yolu axtarışında.

Evlərdə, dostlar məclislərində hamımız idarəetmə böhranından danışır, çıxış yolunun axtarışında idik. Artıq çox yerlərdə Heydər Əliyevin adı çəkilirdi. "Əgər o Moskvaya getməsəydi, ermənilər baş qaldıra bilərdi?", "O hara, indikilər hara!", "Qorbaçov elə Qarabağa görə Heydər Əliyevi Siyasi Bürodan kənarlaşdırdı" - belə ifadələr tez-tez eşidilirdi. Bəzi şəxsi maşınlarda unudulmaz Heydər Əliyevin fotoşəklini də görmək olardı.1992-nin aprelində yaxın dostum Sirus Təbrizli məni evinə dəvət etdi. Görüşümüzün əsas məramı, əlbəttə ki, ölkədəki vəziyyətlə bağlı idi. Qarabağ faciəsi, ölkənin rəhbər orqanlarına anlaşılmaz təyinatlar, yerlərdəki özbaşınalıq, mənə göstərilən təzyiqlər... İkimiz də çox məyus idik. Razılaşdıq ki, böhrandan çıxmaq üçün ilk növbədə milləti birləşdirməyə qadir yeni güclü lider üzə çıxmalıdır. Sirus həmin liderin məhz Heydər Əliyev olduğunu inamla vurğuladı, mən də onu tam dəstəklədim. Hakimiyyətin istər daxili, istərsə də xarici siyasətində, xüsusilə də Dağlıq Qarabağla bağlı günbəgün artan səhvlərini, ciddi nöqsanlarını görür və bunlarla barışa bilmirdim. Anlayırdım ki, mövqeyim həyatımı xeyli ağırlaşdıracaq, ailəm ciddi çətinliklərlə üzləşəcək. Bununla yanaşı onu da dərk edirdim ki, ölkəmiz uçuruma gedir.Gündəmdə Heydər Əliyevin ətrafında həmfikirlərin birləşməsi, təşkilatlanması, yeni bir partiyanın yaradılması dururdu. Eyni amala malik insanlarla məxfi görüşlərimizin intensivliyi get-gedə artır, bəzi həmfikirlərimiz Naxçıvanda olur, Ulu Öndərlə görüşürdülər...

### Partiya yaradıcılığı

30 ildən sonra bütün xronologiyanı dəqiq tarixlərlə xatırlamaq asan iş deyil. Ona görə də, 92-ci ilin avqust-dekabr aylarına aid yalnız bəzi məqamlara toxunacağam. Avqustun ortalarında Elmlər Akademiyası Rəyasət Heyətinin binasında ilk izdihamlı görüşümüz keçdi. Partiyanın yaradılmasının zərurəti haqqında məsələ müzakirə olunarkən mütləq əksəriyyət təşkilatlanmanın vacibliyinə səs verdi. Həmin vaxtdan bir az keçmiş Sirus ziyalılar adından Heydər Əliyevə müraciətin ilk layihəsini hazırladı, qəbul etdiyimiz son versiyası isə imza toplamaq üçün dar çərçivədə olan bir qrup Heydər Əliyev tərəfdarlarına paylandı. Əslində müraciətə 91 nəfərdən qat-qat çox insan imza atmağa hazır idi. Sadəcə vaxt çərçivəsi imzaların sayını məhdudlaşdırdı. Parallel şəkildə partiyanın - Yeni Azərbaycan Partiyasının nizamnamə və proqram layihələri hazırlandı, onların yekun versiyaları Ziya Bunyadovun, Sirus Təbrizlinin, Zahid Qaralovun, mənim və bir neçə fəalların iştirakı ilə müzakirə olundu. Hamımız mükəmməl sənədlər hazırladığımıza əmin idik və buna çox sevinirdik. Onlar Naxçıvana aparıldı. Bir-iki gün keçmiş Sirus mənə layihələrin üzərində əvəzolunmaz liderimiz Heydər Əliyevin qara rəngli qələmlə etdiyi çoxsaylı düzəlişləri göstərdi. Diqqətlə hər birinin təhlilini apardım. Düzəlişlərin hamısı o qədər yerli-yerində edilmişdi! Sənədlər daha sistemli xarakter almış, hər bir mülahizə, yanaşma, cümlə böyük dəqiqliklə ifadə olunmuşdu. Bəli, təsis edəcəyimiz partiyaya güclü iradəyə, çoxşaxəli intellektlərə, mükəmməl savada, nəhəng siyasi və idarəetmə təcrübəsinə malik liderin başçılıq etməsi ən böyük uğur idi!

Ardı Səh. 11

# Yeni Azərbaycan Partiyası - 30

# YAP-30

## *O dövrün təəssüratları*

Əvvəli Səh. 10

Gərgin və həyəcanlı günlərimizin birinci mərhələsi bu tarixi məqamlarla yadda qaldı:

- Heydər Əliyevə "91"-lərin müraciəti və onun 1992-ci ilin oktyabrında "Səs" qəzetində dərc edilməsi;
- Heydər Əliyevin ziyalıların müraciətinə tarixli cavabı və onun yenə də "Səs" qəzetində işıq üzü görməsi;
- 21 noyabr tarixində Naxçıvan şəhərində keçirilmiş konfransda Yeni Azərbaycan Partiyasının təsis olunması;
- 18 dekabr tarixində Ədliyyə nazirliyi tərəfindən YAP-ın rəsmi qeydiyyata alınması.

### Ağır anlar əhatəsində

"91"-lərin müraciəti qəzetdə çıxdıqdan sonra BŞTİ-nin əməkdaşları, məktəb direktorları, eləcə də qohumlarım, dost-tanışlarım tərəfindən açıq və ehtiyatla dəstəklənməsi məni çox ruhlandırdı. Bunun əksi olaraq, ölkənin, Bakı şəhəri və onun rayonlarının icra hakimiyyətində, müxtəlif idarəetmə qurumlarında çalışan yeni məmurların mənə qarşı olan münasibəti xeyli pisləşdi.

Bəzi faktlar.92-ci ilin noyabrında BŞTİ-nin tabeliyində olan və Bakının mərkəzində, Xaqani küçəsində yerləşən Bakı Pedaqoji Kadrların İxtisasartırması İnstitutunun binası məndən xəbərsiz AXC-nin mərkəzi qərargahına verildi. Əlbəttə, həmin səhv qərara biganə qala bilməzdik. YAP-ın təsis konfransından 4 gün keçmiş İnstitut əməkdaşlarına qoşularaq Prezident Apparatının qarşısında etiraz piketi keçirdik. Məni və İnstitutun 6 əməkdaşını həbs etdilər. Sən demə, bizdən xəbərsiz məhkəmə keçirilmiş və hər birimiz 15 sutkalıq azadlıqdan məhrum olunmuşuq. Törətdikləri özbaşınalığın, buna etiraz olaraq, Bakı müəllimlərinin kütləvi etiraz tətilinin qarşısını almaq üçün tez bir zamanda bizi azadlığa buraxdılar.1993-cü ilin yanvarında nazir İsgəndər Həmidov Naxçıvandan qayıtmış Sirusun həbs olunması haqqında xüsusi göstəriş vermişdi. Mən "91"-lərin gənc üzvü Munis Bayramovla birlikdə onun şəxsi maşınında şəhərin yollarını dolaşır, əmin olduqdan sonra ki, bizi güdmürlər, Sirusla gizli mənzildə görüşür, müvafiq məlumatları ona çatırırdıq. 1993-ün fevralında Bakıda hepatit xəstəliyinə yoluxanların sayı artmış, 23 nömrəli məktəbdə 2-3 şagirddə yoluxma hadisəsi qeydə alınmışdı. Əlbəttə, BŞTİ tərəfindən dərhal zəruri tədbirlər həyata keçirildi. Lakin məsələ Bakı İcra Hakimiyyətində müzakirə olunarkən və hesabatım dinlənildikdən sonra Başçı elan etdi ki, məni tutduğum vəzifədən azad edir. Bu məlumatı sevinclə qarşılayan bir neçə "cəbhəçi" məmurun sifətindəki təbəssüm indiyədək yadımdadır. Gülümsəyərək dedim ki, mənə aid belə qərarın veriləcəyinə çoxdan hazıram. Ucadan "Təbrik edirəm! Nəhayət ki, Bakıda sarılıq xəstəliyini yayan əsas səbəbkarı tapdınız!" - deyib, qapını çırparaq zaldan çıxdım. Yığıncaqda iştirak etməmiş Bakı Şəhər İcra Hakimiyyəti başçısının müavini Füzuli Axundovun qəti etirazı, habelə Təhsil naziri professor Firudin Cəlilovun mənfi reaksiyası vəzifəmdən kənarlaşdırma cəhdinin qarşısını aldı. 93-cü ilin mayında hakimiyyətin inzibati strukturlarının birində çalışan qohumum məxfi məlumat verdi ki, iyunun əvvəlində (müəyyən edilmiş dəqiq tarixi unutmuşam) mən də daxil olmaqla Siyasi Şuranın üzvləri və adları xüsusi siyahıda əks edilmiş bir sıra YAP fəalları həbs olunacaqlar... Əlbəttə, Bakı Şəhər Baş Təhsil İdarəsinin rəisi vəzifəsində çalışmaq və müxalif partiyanın tərəfdaşı olmaq asan iş deyildi. Müxtəlif görüşlər, yığıncaqlar zamanı həmişə vurğulayırdım ki, bütün əmək fəaliyyətim təhsilimizin inkişafına yönəlmişdir. Siyasi baxışlarımın isə vəzifəmin icrasına heç bir dəxli yoxdur.

### Ədalətin zəfəri.

Şübhə etmirdik ki, YAP parlament seçkiləri yolu ilə hakimiyyətə gələ bilər və qarşıda hər birimizi ağır günlər gözləyir. Aydın məsələdir, həyəcan keçirirdik, amma iradəmizi və inamımızı heç nə qıra bilməzdi. Ölkədə vəziyyət ağırlaşır, Qarabağ müharibəsinin qurbanları çoxalır, torpaqlar əlimizdən gedirdi. Anlayırdıq ki, Azərbaycanın müstəqilliyi və suverenliyi təhlükə qarşısındadır. Ölkədə və yerlərdə idarəçilik iflic vəziyyətə düşmüşdü. Bunun məntiqi nəticələrindən biri olaraq, 4 iyun Gəncə qiyamı baş verdi. Proseslər ildırım sürəti ilə cərəyan etməyə başladı. Cəmi 11 gün keçmiş Heydər Əliyev Azərbaycan Respublikası Ali Sovetinin sədri seçildi!..

Ölkəmizin son 29 il ərzindəki inkişaf tarixi başqa bir söhbətin mövzusudur. Ona görə yığcam deyəcəyəm.Yeni Azərbaycan Partiyasının ən böyük tarixi uğurlarından biri partiyanın yaradıcısı və ilk sədri unudulmaz Heydər Əliyevin rəhbərliyi altında Azərbaycanın müstəqilliyi və suverenliyinin qorunması, bununla da, böyük inkişaf yolunun təməlinin qoyulması oldu;30 illik yubileyini qeyd edən Yeni Azərbaycan Partiyasının ən böyük tarixi nailiyyəti partiyanın sədri, prezidentimiz İlham Əliyevin rəhbərliyi ilə 34 il əsir olmuş Qarabağın dağlıq hissəsindəki böyük sahənin, 30 il əsarətdə qalmış 7 rayonumuzun doğma Azərbaycana qayıdışı oldu.

### Yekun əvəzi.

O dövrə aid təəssüratlarımdan bəzilərini qələmə aldıqdan sonra bu qənaətə gəldim ki, "Təhsilimiz: dünəndən sabaha. Optimistin baxışları" (2020) kitabımdan verdiyim aşağıdakı parça yazımın ən yaxşı yekunu ola bilər. "Moskva şəhər Təhsil Departamentinin dəvəti ilə 14-17 oktyabrda (2008-ci il) "Erkən yaşlı uşaqların təhsili" mövzusunda beynəlxalq forumda iştirak etdim. Mən "Erkən yaşlı uşaqların intellektual inkişafı" bölməsinin iştirakçısı oldum, habelə "Müasir uşaq - o kimdir?" mövzusunda keçirilən "dəyirmi masa" müzakirələrində çıxış etdim. Yeri gəlmişkən, "dəyirmi masa"ya akademik Vitaliy Rubtsov rəhbərlik edirdi. O, Moskva Dövlət Psixoloji-Pedaqoji Universitetinin rektoru, eyni zamanda Rusiya Təhsil Akademiyasının L.Q. Şukina adına Psixologiya İnstitutunun direktorudur. Qeyri- rəsmi söhbətimiz zamanı hörmətli akademik həyatında və elmi fəaliyyətində son dərəcə mühüm və mərhum Heydər Əliyevin adı ilə bağlı olan hadisədən bəhs etdi. Qeyd edim ki, Vitaliy Rubtsov dünya miqyaslı görkəmli alim-psixoloq, inkişafetdirici təlim nəzəriyyəsi və təcrübəsinin əsasını qoyanlardan biri olan Vasiliy Davıdovun yetirməsidir. Davıdov həm də sovet pedaqogikasının ideoloji opponenti kimi də tanınırdı. Ötən əsrin 70-ci illərinin sonundan dəfələrlə, özü də kəskin şəkildə mövcud rəsmi pedaqoji doqmaları tənqid edir, sovet təhsil sistemində dərin dəyişikliklər aparılmasının zəruriliyindən açıqcasına danışırdı. V. Davıdov bu cür "üsyankar" çıxışları və məqalələrinə görə 1983-cü ildə Sov.İKP sıralarından xaric edilir və institut direktoru vəzifəsindən uzaqlaşdırılır. Davıdov işdən çıxarıldıqdan sonra, əlbəttə ki, Rubtsovun o vaxt rəhbərlik etdiyi və novatorluğu ilə fərqləndiyi İnkişafetdirici təlim laboratoriyasının ləğvi məsələsi də gündəmə gəlmişdi. Vitaliy Vladimiroviç vəziyyətdən çıxış yolu axtarmağa çalışsa da, atılan addımlar heç bir nəticə verməmişdi və mahiyyət etibarilə verə də bilməzdi. Nəhayət, dostlarının israrlı təkidi ilə Rubtsov SSRİ Nazirlər Soveti sədrinin birinci müavini Heydər Əliyevə müraciət məktubu yazmışdı. Sovetlər gerçəkliyində heç kəsin tanımadığı hansısa psixologiya elmləri namizədinin məktubuna SSRİ-nin əsas rəhbərlərindən biri tərəfindən diqqət yetiriləcəyinə, əlbəttə ki, ümid yox idi. Nə qədər təəccüblü olsa da, qısa bir zamanda gənc alim Heydər Əliyevdən birmənalı dəstək almış və bu dəstək sayəsində laboratoriyanın bağlanması təhlükəsi aradan götürülmüşdü. Rubtsov və onun həmkarları indinin özündə də həmin günləri, partiya sıralarından xaric edilmiş Davıdovun adı ilə assosiasiya olunan laboratoriyanın ləğv edilməsinin qarşısını almaqda Sov.İKP MK Siyasi Bürosu üzvünün atdığı çox cəsarətli addımı böyük iftixarla xatırlayırlar".







# YAP Pirallahı rayon təşkilatının fəalları Heydər Əliyev Mərkəzini ziyarət ediblər

Yeni Azərbaycan Partiyasının (YAP) təsis edilməsinin 30-cu ildönümü münasibətilə partiyanın Mərkəzi Aparatı tərəfindən hazırlanmış və İdarə Heyətinin qərarı ilə təsdiq edilmiş Tədbirlər Planına uyğun olaraq YAP-ın Bakı şəhəri üzrə rayon təşkilatlarının gənc fəallarının Heydər Əliyev Mərkəzinə ekskursiyası davam edir. Noyabrın 5-də YAP Pirallahı rayon təşkilatının fəalları Heydər Əliyev Mərkəzini ziyarət ediblər.

Partiya fəalları Ulu Öndərin zəngin və mənalı ömür yolunu əks etdirən eksponatlarla, əyani vəsaitlərlə tanış olublar.

# Molla rejimindən müharibə hədəsi

**ABŞ prezident administrasiyasının diqqəti qismən Ukraynadan Yaxın Şərqə yönəlib. Yaxın Şərqdəki ən yaxım müttəfiqi Səudiyyə Ərəbistanına İranın yaxın gələcəkdə öz ərazisindəki hədəfləri vurmağa hazır olduğu barədə xəbərdarlıq edib. İki regional rəqib ötən ildən rəsmi münasibətləri normallaşdırmaq üçün bir sıra danışıqlar aparsa da, daxildə davam edən etirazlar Tehranı məsələyə diplomatik yanaşmasına yenidən baxmağa vadar edib. Ər-Riyad açıq şəkildə hökumət əleyhinə üsyanları qızışdırmaqda günahlandırılıb.**

Dövlət Departamentinin mətbuat xidmətinin rəhbəri Ned Prays keçirdiyi brifinqdə ABŞ prezidenti Cozef Bayden administrasiyasının İrandan gələn "təhdid modelindən narahat olması" faktını etiraf edib. O, Amerika tərəfinin Səudiyyə Ərəbistanı ilə "hərbi, diplomatik, kəşfiyyat kanalları vasitəsilə daimi təmasda olduğunu" və lazım gələrsə, çəkinmədən həm ABŞ-ın, həm də regional tərəfdaşın maraqlarını müdafiə etməyə hazır olduğunu bildirib. Bununla belə, Ərəb monarxiyasındakı Amerika vətəndaşlarına fors-major vəziyyətlərdə olduğu kimi, ölkəni tərk etməyi tövsiyə edən bildirişlər göndərilməyib.



Praysın açıqlamaları Wall Street Journal-ın bir gün əvvəl Ər-Riyad və Vaşinqtondakı anonim mənbələrə istinadən Səudiyyə tərəfinin müttəfiqi ilə kəşfiyyat məlumatlarını paylaşdığını bildirməsindən sonra ilk rəsmi bəyanatlardan biri idi. Qaçılmaz təhlükə də bundan ibarətdir ki, İran tərəfindən krallığın əsas infrastrukturuna hücum edəcəyi barədə məlumatlar kəşfiyyat tərəfindən də təsdiqini tapıb. Qərb mətbuatı da yaxın günlərdə sərhədyanı bölgələrə hücumun həyata keçirilə biləcəyinə aydınlıq gətiriblər. Görünür, Birləşmiş Ştatlar təhlükəni ciddi qəbul edib. Yaxın Şərqdə yerləşdirilən Amerika qüvvələri yüksək hazırlıq vəziyyətinə gətirilib, Wall Street Journal yazır.

İki rəqib arasında münasibətlərin kəskinləşməsinə səbəb 2015-ci ildə Səudiyyə Ərəbistanının başçılıq etdiyi ərəb koalisiyasının qonşu Yəməndə husi üsyançılarına qarşı hərbi əməliyyata başladıqdan sonra Molla dövlətinin rəhbərlik etdiyi "müqavimət oxu"nun cavabı oldu. Mübahisə 2016-cı ilin yanvarında Səudiyyə Ərəbistanında şiə ruhanisi Nimr əl-Nimrin edam edilməsi ilə daha da dərinləşdi. ABŞ-ın regiona marağının azalması fonunda Ər-Riyad əlaqələri bərpa etmək üçün 2021-ci ildən başlayaraq əlaqələrdəki buzların "əriмə" perspektivləri ilə bağlı bir sıra görüşlər keçirməyə nail oldular. Lakin bu il Ərəb monarxiyası qurbanları şiələr olan kütləvi edama yenidən getdi. İndi münasibətlərin bərpası ilə bağlı danışıqların aparıldığı rabitə kanalları yəqin ki, tamamilə kəsilib.

Bununla belə, Səudiyyə Ərəbistanı yenidən Tehran rejiminin hədəfinə tuş gəldi, Mollalar sentyabr ayından bəri ölkə daxilində davam edən kütləvi etirazlara görə məsuliyyəti bütün xarici dövlətlərin üzərinə yıxmağa çalışdı. İran İslam İnqilabı Keşikçiləri Korpusu (SEPAH) krallığın xarici siyasətini tənqid edən bir sıra bəyanatları ilə diqqət çəkdi. SEPAH-nın məlumatına görə, Molla rejiminə müxalif informasiya flaqmanı olan London peyk telekanalı "İran İnternational"-ın Ərəbistan tərəfindən maliyyələşdirilməsi səudiyyəlilərin hökumət əleyhinə etirazları qızışdırmaqda günahına işarə edir.

Bununla belə, Tehran rejiminin rəsmilərinin bəyanatları Səudiyyə Ərəbistanı istiqamətində dövlət siyasətində koordinasiyanın olmadığını nümayiş etdirdi. Əgər İslam İnqilabı Keşikçiləri Korpusunun komandiri general-leytenant Hüseyn Səlami son həftələrdə İŞİD üzvü tərəfindən Şirazdakı məqbərəyə atəş açılmasına qədər baş verənlərin hamısında krallığı günahlandırıbsa, sonra İran dini liderinin ofisi tarazlıq axtarmağa hazır olduğunu göstərdi. Belə ki, ali rəhbərin beynəlxalq məsələlər üzrə müşaviri Əli Əkbər Vilayəti bəyan edib ki, biz Səudiyyə Ərəbistanı ilə qonşuyuq və birlikdə yaşamalıyıq. Problemlərimizi daha səmərəli şəkildə həll etmək üçün iki ölkənin səfirliklərinin işini bərpa etmək lazımdır.



**Tehran Ərəbistan yarımadasını vuracaq, cavab isə...**






Molla rejiminin Səudiyyə Ərəbistanına zərbə endirməklə gündəmin diqqətini dəyişməyə çalışa biləcəyi proqnozunu Qərb tədqiqat mərkəzləri oktyabrın əvvəlində - İran din polisi tərəfindən kürd əsilli Məhsa Əmin adlı qızın öldürülməsinə qarşı kütləvi etirazlara getməsindən iki həftə sonra veriblər. Bununla belə, ekspertlər ən çox ehtimal edilən ssenarilərdən biri kimi Yəmən ərazisindən krallığın infrastrukturuna 2019-cu ilin sentyabrında Səudiyyə Aramco-nun neft emalı zavodlarını sarsıdan hücumların baş verəcəyini nəzərdə tuturlar. Məhz bu hücumlardan sonar Ər-Riyad müvəqqəti olaraq istehsalı dayandırmağa məcbur olmuşdu.

Belə bir böyük həcmdə hərbi əməliyyatların keçirilməsi üçün ilkin şərtlər artıq var. Oktyabrın 2-də husilər Yəməndə təxminən altı aydır qüvvədə olan atəşkəsin başa çatdığını elan ediblər. Oktyabrın 5-də OPEC+ üzvləri Bayden administrasiyasının Səudiyyənin vəliəhd şahzadəsi Məhəmməd bin Salman ilə danışıqlar aparmaq cəhdlərinə baxmayaraq, neft hasilatının kvotalarını azaltmaq qərarına gəldikdən sonra ABŞ qanunverici orqanı açıq şəkildə bəyan etdi ki, o, neft hasilatı kvotalarını azaltmağa hazır deyil. Yaxın Şərq müttəfiqi Vaşinqtonun istəklərinə zidd getdiyi və üstəlik, konqresmenlərin hesab etdiyi kimi, Rusiya ixracatçıları ilə birgə fəaliyyət göstərən Səudiyyənin cəzalandırılması qaçılmazdır.

Səudiyyə Ərəbistanı təkbətək formatda İranla birbaşa hərbi qarşıdurmaya hazır deyil, ya da döyüşə pis hazırlaşıb. Son onilliyin hadisələri göstərir ki, krallığın silahlı qüvvələri hətta husilərlə münaqişədə də ciddi problemlər yaşayıb. Üstəlik, Səudiyyənin hava hücumundan müdafiə və raketdən müdafiə sistemləri husilərin malik olduğu raket və pilotsuz təyyarələrdən strateji əhəmiyyətli obyektləri etibarlı şəkildə qoruya bilmədi, onların sayı və model diapazonu Tehran rejimi ilə müqayisədə çox məhduddur.

Bununla belə, Vaşinqtonla Ər-Riyad arasında münasibətlərdə müəyyən soyuqluq olsa da, hələ də onların hərbi və hərbi-texniki sahədə çox sıx əlaqələri var. Beləliklə, son hesablamalara görə, Səudiyyə Ərəbistanındakı bazalarda 3000-dən çox Amerika əsgəri qalır. Orada ABŞ-dan olan çoxsaylı hərbi təlimatçılar, texniki mütəxəssislər və s. fəaliyyət göstərir. Riyad hər hansı ciddi təhdid halında Vaşinqtonun dəstəyinə arxalanmağa davam edəcək.

***V.VƏLİYEV***

RAKURS

**Mərkəzləşdirilmiş istiliyin ilk nümunələri hələ eramızdan əvvəl III-IV əsrlərdə mövcud olmuşdur. Bu sistem ilk dəfə Roma və yunan imperiyalarında ictimai hamamlarda (term) tətbiq edilmişdir. Avropada istilik təchizatı sistemlərinin inkişafı istiqamətində ilk addım elektrik sənayesinin intensiv inkişafı nəticəsində Almaniyada atılmışdır. Elektrik istehsalı (blok elektrostansiyaları və ümumi təyinatlı elektrik stansiyaları) tələbatçıların mərkəzləşdirilmiş istilik təchizatının əsasını təşkil etmişdir.**






# Ölkədə istilik təchizatı necə həyata keçirilir?

Dünyanın müxtəlif yerlərində istilik təchizatına yanaşma bir neçə amildən, lakin ilk növbədə iqlimin şiddətindən, enerji resurslarının mövcudluğundan və ətraf mühitə münasibətdən asılıdır. Bunları nəzərə alaraq, kosmik isitmə kömür və ya biokütlənin yandırılmasından tutmuş yer qabığının enerjisindən istifadəyə qədər müxtəlif üsullarla həyata keçirilir.

Dünya ölkələri mənzilləri ev qazanları, kondisionerlər və odun sobalarının köməyi ilə qızdırırlar. Hər kəs resurslara qənaət etməyə çalışır və bəzi ölkələrdə hətta həddindən artıq daxili temperatur üçün cərimələr tətbiq olunur.

## Dünya ölkələrində istilik sistemləri

Şaxtaların -20° C-yə çatdığı dağlıq bölgələr istisna olmaqla, İtaliyada qışlar isti keçir. Termometr nadir hallarda sıfırdan aşağı göstərir və kurort şəhərlərində qışda temperatur +5 °C-dən yuxarıdır. Şiddətli şaxtaların olmamasına baxmayaraq, evlərdə istilik tələb olunur.

Lazım olmayan yerləri isitməmək, eləcə də ətraf mühitə və resurslara qənaət etmək üçün hökumət ölkəni bir neçə iqlim zonasına ayırıb ki, onların hər birində müəyyən tarixlərdə batareyalar iş rejiminə düşür. Məsələn, Siciliya adasında istilik mövsümü dekabrın əvvəlindən martın sonuna qədər davam edir, istilik isə gündə yalnız 8 saat yandırıla bilər. Lakin İtaliyanın şimalında radiatorlar oktyabrın ortalarından aprelin ortalarına qədər hər gün 14 saat işlədilə bilər. Əksər şəhərlərdə mərkəzi istilik sistemi yoxdur. Almanlar enerjini boş yerə sərf etməmək üçün ümumiyyətlə bütün mənzildə istilik səviyyəsini bir neçə dərəcə azaldırlar.

## Bəs Azərbaycanda vəziyyət necədir?

SİA mövzu ilə bağlı araşdırma aparıb. Azərbaycanda istilik sisteminin inkişaf tarixi də ümumilikdə dünyanın digər ölkələrində mövcud olan istilik sistemlərinin inkişaf tarixindən bir o qədər də fərqlənmir və o məhz elektrik enerjisi sənayesinin inkişafı ilə bağlıdır. Belə ki, XIX əsrin sonlarına doğru Bakıda neft sənayesinin inkişafı elektrik enerjisinə olan tələbatı kəskin artırırdı. Dünyanın tanınmış elektrotexnika şirkətlərinin diqqəti Bakıya yönəlməyə başlamışdı. "Siemens-Qalske", AEQ və digər firmalar 1898-ci ildə "Elektrik Gücü" Səhmdar Cəmiyyəti təsis etdilər. Təbii ki, mərkəzləşdirilmiş istilik təchizatı sistemi yaradılana qədər də binalar qızdırılırdı. Şəhərlərin sürətlə inkişaf etməsi, xarici ölkələrdən yüksək səviyyəli memarlar dəvət etməklə yeni-yeni yaşayış binalarının və ictimai binaların tikintisi, neft sənayesinin sürətli inkişafı ilə əlaqədar xarici və yerli sahibkarlara məxsus ofis və şirkətlərin yaradılması onları yeni isitmə formalarının tətbiqinə sövq edirdi.

Ötən əsrin 60-cı illərindən başlayaraq Bakı şəhərində və respublikanın digər sənaye şəhərlərində yeni yaşayış massivlərinin salınması ilə əlaqədar yeni isitmə sistemi - yüksək dərəcədə mərkəzləşdirilmiş və həmin dövr üçün müasir tipli qazan aqreqatlarından ibarət olan rayon istilik qazanxanaları sistemi tətbiq olunmağa başlamışdır.

"Əhalinin və iqtisadiyyatın enerjidaşıyıcıları ilə təminatının yaxşılaşdırılması tədbirləri haqqında" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il tarixli sərəncamı ilə ölkənin enerji daşıyıcılarına olan tələbatının yaxşılaşdırılması ilə bağlı mühüm əhəmiyyət kəsb edən tədbirlərin həyata keçirilməsi nəzərdə tutulmuşdur ki, onların da bir qismi məhz istilik təchizatı ilə bağlı olmuşdur. Bu sahəyə investisiyaların cəlb edilməsinin təmin edilməsi məqsədi ilə "Azəristiliktəchizat" ASC yaradılmış, Azərbaycan Respublikasında yaşayış məntəqələrində yaşayış evlərinin və binalarının, habelə sosial və digər təyinatlı obyektlərin istilik təchizatı işlərinin həyata keçirilməsi ona həvalə edilmişdir.



"Azəristiliktəchizat" ASC-nin mətbuat katibi Elvin Basqallı: "Azəristiliktəchizat" ASC istilik mövsümünə dair təmir-bərpa işlərini yekunlaşdırıb, cəmiyyət qışa tam hazırdır. 1 noyabr tarixindən etibarən respublikanın dağlıq və dağətəyi ərazilərində istilik enerjisinin verilməsinə başlanılıb. Bakı şəhəri və Respublikanın digər regionlarında balansında olan 564 qazanxana və 88 istilik məntəqəsi vasitəsi ilə 180 minə yaxın mənzil, habelə 2085 sosial və təsərrüfat hesablı obyektlər istiliklə təmin edilir".

2022-2023-cü illər istilik mövsümündən başlayaraq pilot layihə olaraq müxtəlif tipli yaşayış və qeyri-yaşayış binalarında istilik sayğaclarının quraşdırılması nəzərdə tutulur. "Azəristiliktəchizat" ASC-də sayğaclaşma ilə bağlı artıq müvafiq şirkətlərlə danışıqlara başlanılıb deyə mətbuat katibi bildirib.

"Qeyd edək ki, hazırda istilik tarifləri mənzilin sahəsinə görə hesablanır. 1 kvadratmetrin qızdırılmasında sərf olunan istilik enerjisinin miqdarı götürülür və ona uyğun tarif tətbiq olunur".

***Havar Şəfiyeva***

# Qubad İbadoğlunun partiyasında qarşıdurma və istefa

*Səxavət Əlisoy: "İdarə Heyətinin bəzi zavallı üzvlərinə acıyıram"*

**Qubad İbadoğlunun sədri olduğu Azərbaycan Demokratiya və Rifah (ADR) Partiyasında qarşıdurmalar səngimir. Bu dəfə partiyanın aparıcı üzvlərindən və funksionerlərindən olan Səxavət Əlisoy təşkilatın sədri Qubad İbadoğlunu və onun ətrafını sərt şəkildə ittiham edib, istefaya getdiyini açıqlayıb.**



SİA xəbər verir ki, "Facebook" sosial şəbəkəsindəki səhifəsində Q. İbadoğlunun idarəçiliyini kəskin tənqid atəşinə tutan, eləcə də partiya idarəçiliyinin qrantlar üzərində təşkil olunduğunu qeyd edən, o cümlədən, sədri namərd adlandıran S.Əlisoy son olaylara reaksiyasını bu cür verib: "Sən, Qubad İbadoğlu, heçmi xəcalət çəkmirsən, yazdıqlarından? Bir də bax yazdıqlarına. Bu idarəçilik üsulunun adı nədir? Nə qədər qəzetə, sayta zəng etsən də, hərəkətinin üstünü örtə bilməzsən. Sözümü deyəcəm, susacaqsan. Susacaqsan, ona görə yox ki cavab verməyi özünə rəva bilmirsən. Ona görə ki, etdiyin hərəkətin adı yüzdəyüz namərdlikdir".







### "WhatsApp"dakı qapalı qrupda İdarə Heyətinin üzvlərini divara dirəmisən ki, Səxavət Əlisoyla kim çörək yeyib, çay içib etiraf etsin"

ADR sədrinin ona cavab verməyə cürətinin çatmayacağına işarə edən S.Əlisoy partiyanın qapalı "WhatsApp" qrupunda iddia edib ki, İdarə Heyətinin üzvləri Q.İbadoğlunun təlimatı ilə onu müzakirə edir, həmçinin onlar qarşısında tələblər qoyulur: "Hansı üzlə cavab verə bilərsən ki? Cavab verməyə cəsarətin yoxdur, amma "WhatsApp"dakı qapalı qrupda İdarə Heyətinin üzvlərini divara dirəmisən ki, Səxavət Əlisoyla kim çörək yeyib, çay içib etiraf etsin. Bu nə istintaqdır? Mənimlə çörək yemək vətənə xəyanətdir? Sən özün neçə dəfə mənimlə müxtəlif məkanlarda çörək yemisən? İdarə Heyətinin bəzi zavallı üzvlərinə acıyıram. Sualı onlara ünvanlamaq təhqirdən betər..."

### "Sən heç vaxt lider ola bilməzsən, cılız adamlar liderə çevrilmir"

S.Əlisoy Q.İbadoğlunun heç vaxt lider keyfiyyətlərinə malik olmadığını, cılız fərd olduğunu, deyib və sözünü bu gün sədrə bağlanan digər şəxslərə də ünvanlayıb. O, xəbərdarlıq edib ki, sədrin "maskası cırılandan" sonra bu gün onunla bir olanlar sonradan həmin qərarlarına görə peşman olacaqlar: "Sən heç vaxt lider ola bilməzsən, cılız adamlar liderə çevrilmir. Sən ən məsləhətlisi çəkil siyasətdən, get patronlarından qrant almağına. Verdiyin proqnozların da professorluğun kimi bir cəfəngiyyatdır. Bu gün sənə inananlar maskan cırılandan sonra xəcalət çəkəcəklər..."

### "Əxlaqım yol vermir ki, barəndə göndərilənləri yayam"

S.Əlisoy ADR sədrinə xəbərdarlıq da ünvanlayaraq bildirib ki, onun barəsində partiya daxilində dedi-qodular yaratmasın, əks halda o da Q.İbadoğlu haqqında əlində olan bütün faktları gündəmə çıxaracaq, rüsvay edəcək: "Aç qulağını, eşit. Nə Azərbaycanda, nə xaricdə kimsənin qarşısında əyilmədim. Alnıaçıq, qürurla yaşayan, kimsənin qarşısında gözü kölgəli olmayan bir adamam. Sən isə... Əxlaqım yol vermir ki, barəndə göndərilənləri yayam".

### "Başını aşağı sal, qrantını al!"

ADR-dən istefa verən funksioner Q.İbadoğlunun xarici ölkələrdən qrantlar aldığını, sifarişli fəaliyyət göstərdiyini iddia edib. O, həmçinin qeyd edib ki, ADR-dəki insanlar baş verənlərə vicdanları ilə cavab versinlər və kimin haqlı-haqlı olduğunu müəyyənləşdirsinlər: "Başını aşağı sal, qrantını al! Ortaq dostlarımız var. Fikir bildirməyə cəsarəti çatmayanlar oxusun və vicdanı qarşısında kimin haqlı, kimin də haqsız olduğuna cavab versinlər".

Xatırladaq ki, Q.İbadoğlu Müsavat partiyasının fiunksionerlərindən olub və partiyanın qurultayında başqanlığa namizədliyini irəli sürsə də qalib ola bilməyib. Məhz Arif Hacılının başqan seçilməsində sabiq başqan İsa Qəmbəri seçkilərə müdaxilədə ittiham edən Q.İbadoğlu partiyadaxili parçalanma yaradaraq tərəfdarları ilə Müsavatdan ayrılıb. Nəticədə ADR adlı hərəkat yaradaraq sonradan onu partiyaya çevirib. Məhz həmin ərəfələrdə Q.İbadoğluya ən ciddi dəstəyi S.Əlisoy göstərib. S.Əlisoy Müsavatın rəhbərliyinə qarşı sərt mövqe nümayiş etdirməklə onları xəyanətdə və satqınçılıqda suçlayıb. Bütün bunlardan sonra Q.İbadoğlunun zamanında ona dəstək göstərən S.Əlisoya qarşı fikirlər işlətməsi ikincinin birinciyə qarşı sərt tonda çıxış etməsinə zəmin yaradıb.

***Rövşən RƏSULOV***

---



# Axır ki...

Mətanət MƏMMƏDOVA

**Yarandıqları desək, çox yanılmış olarıq, yaradıldıqları tarixdən özləri olmayan, yalnız arxalarındakıların əmri, tapşırığı, diqtəsi ilə oturub-duran ermənilər elə bu səbəbdən də uzun illərdir ki, problemlər yaşamaqdadırlar. Mövcudluqlarında daim ona-buna sığınmaları, telefonun dəstəyinin əllərindən düşməməsi səbəbindən başlarının çəkmədiyi bəlalar qalmayıb.**

Kimin əhvalı yaxşı olub bunlara üz göstərib, kimin ki, əhvalı yaxşı olmayıb, qanı başqa səbəblərdən qara olub, bunları rədd edib. Ona görə də bunlar qalıblar ortalıqlarda. Elə 44 günlük Vətən müharibəsində də ələyəz yeli çevrilmədikləri tərəf qalmadı. Birdən Rusiyaya üz tutdular, buradan üz görmədikdə Qərbə üz tutdular. Axır elə etdilər ki, bunların telefonunu ta açan da olmadı.

Həqiqətən qürur yaxşı şeydir. Arada bir özünüz olmağı da təcrübədən keçirin də, nə olar. Bəlkə bu, yaltaqlığınız, xəbər aparıb, xəbər gətirməyiniz, xəyanətin hər tərəfini bilməyiniz, əl buyruqçusu olmağınız, sizdən istifadə məqsədilə havadarlarınıza çevrilənlərin sizə etdiklərindən səmərəli olardı.

Yəqin bunu istəyirdiniz, hə. İstəyirdiniz ki, hamı sizi sinənizdən itələyib kənara ata, sizin də ağlınız başınıza gələ. Budur, ictimai xadiminiz, hüquq müdafiəçisi və publisistiniz Vardan Arutyunyanın paylaşımı: Ermənistan qonşuları ilə problemləri özü, düşünərək həll etməlidir. Əlbəttə ki, vasitəçilərin köməyi ilə. Vasitəçilər isə var - Rusiya və Qərb. İrəvana seçmək qalır. Ancaq bu və ya digər şəkildə Qarabağ məsələsi Ermənistan üçün bağlandı - vasitəçinin kim olmasından asılı olmayaraq.

Arutyuran daha sonra görün nə deyir: "Qərb regionumuzda sülh yaratmaq və Rusiyanı burdan çıxarmaq istəyir, Rusiya isə həll olunmamış Ermənistan-Azərbaycan münaqişəsi hesabına regionda qalmağa və onu idarə etməyə çalışır. Ermənistan hansı istiqaməti seçəcəyinə qərar verməlidir. İstəsək də, istəməsək də, hər iki halda Qarabağ Azərbaycanın bir hissəsi olaraq qalacaq. Nə Qərb, nə də Rusiya Azərbaycanın ərazi bütövlüyünə şübhə edir. Bu gün yalnız öz günahımız üzündən hər şeyi itirdiyimiz halda və əlimizdə heç bir kozurumuzun olmadığı bir məqamda, bu və ya digər vasitə ilə Qarabağı əldə edə biləcəyimizə inanmaq yanlış olardı. Çünki bu, yalan təbliğatdır. Qarabağ Azərbaycandır və bu dəyişilməz qalacaq".

Deyir, insanın başı daşdan daşa dəyməlidir ki, anlasın. Axır ki, deyəsən anlayırlar. Anlayırlar ki, yox, ta heç kimdən haray yoxdur. Çarə həqiqəti etiraf edib, çəkilməkdir. Başqasının torpaqlarına göz dikmək mənasızdır. Çünki o gözləri elə tökərlər ki, bir daha dünyanın nə rəngdə olduğuna həsrət qalar. 44 gündə tökülən gözlər kimi. Düşündülər ki, başqasının torpağına göz dikənlərin başına elə yumruq endirərlər ki, yerindən tərpənə bilməz. 44 gündə endirilən dəmir yumruq kimi. Odur ki, axır ki, deyəsən ağılları başlarına gəlib. 30 ildə arxalı köpək obrazından çıxıb ta özləri olmaqdadırlar və öz liderlərinin əvvəllər dediyi kimi, "Qarabağ Ermənistandır", yox, bizim liderimizin dediyi kimi, "Qarabağ Azərbaycandır",- deyirlər.

Burada anlaşılmayan nə var ki... Çəkil otur torpağında, başını sal aşağıya, yaşa özün üçün. Başqasının torpağında nə gəzirsən ki, başın bu qədər bəlalar çəkə və ağız açmadığın dünya xalqı qalmaya. Axır ki, deyəsən, hələ deyəsən ha, ağıllanırlar. Axarlı olsun!

---

# Xerson alındıqdan sonra, yollar Krımadır?

**Hərbi ekspert Oleq Jdanov Xersonun itkisindən sonra Rusiya ordusu üçün dağıdıcı təsirin olacağını proqnozlaşdırır. Onun sözlərinə görə, ruslar Xerson vilayətinin sağ sahili uğrunda son gülləsinə qədər vuruşacaqlar. SİA bu barədə Ukrayna saytlarına istinad edir.**

Beləliklə, Jdanov hazırda Dnepr çayının sağ sahilində, o cümlədən elə Xersonun özündə də rotasiya, yəni əvəzləmələr aparıldığını bildirir. Onun sözlərinə görə, ruslar onlara dəxli olmasa da, amma önəm kəsb edən bütün şeyləri, deyək ki, arxivləri özləri ilə şəhərdən çıxarırlar. Onlar hətta Milli Qvardiyanı da geri çəkirlər, çünki orda onlara lazım deyil. Amma onların yerinə desant qoşunları kimi döyüşə hazır hissələri gətirirlər.

Jdanova görə, Xersonu küçə döyüşlərinə hazırlayan ruslar şəhərə yeni gətirilən hərbçilərin əksəriyyətinə mülki geyim geyindirirlər. Niyə? Ona görə ki, bütün bunları video çəkəcək ruslar, sonradan dünyaya "yerli xersonlular"ın öz şəhərlərini ukraynalılardan necə qoruduqlarını dünyaya nümayiş etdirəcəklər. Yəni bu, Ukraynanın işğalına məruz qalan yerli sakinlərin müqaviməti kimi təqdim olunacaq.

Hərbi ekspertə görə, əslində bu rusların təcrübəsində birinci hal deyil. Maraqlıdır, əgər Xerson Ukrayna qoşunları tərəfindən geri alınsa, görən bu halda ukraynanıların planı nə olacaq?

Yenə da Jdanova görə, Xerson azad edildikdən sonra Ukrayna Silahlı Qüvvələri Zaporojye istiqamətinə və Krıma gedəcək, "çünki Rusiyada



cəbhə xətti artıq dağılacaq".

Qeyd edək ki, hazırda cənubda Ukrayna Silahlı Qüvvələrinin əks-hücumları davam edir. Belə ki, ukraynalı qırıcılar düşmənin logistika marşrutlarına ardıcıl olaraq zərbələr endirirlər.

Buna cavab olaraq Rusiya on minlərlə təlim keçmiş və qismən səfərbər edilmiş döyüşçülərini Xerson istiqamətinə göndərir. Belə görünür ki, Kremlin planına görə, müdafiənin sıçrayışı zamanı döyüşə hazır bölmələri əhatə etməli olacaq. Eyni zamanda, ruslar Dnepr çayının sol sahilinə "evakuasiya etməyə" hazır olduqları barədə şayiələr də yaymağa başlayıblar.

***Ağasəf Babayev***

# Ərzaq təhlükəsizliyimizi necə təmin edə bilərik?

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə “Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi” istiqaməti çərçivəsində hazırlanıb.

**Son illərdə kənd təsərrüfatı bazarlarında və ərzaq mağazalarında müşahidə olunan qeyri-stabil qiymətlər həm alıcılar üçün, həm də istehsalçılar üçün problem yaradır. Bu tendensiya özlüyündə daha ciddi problemin carçısıdır- ölkənin aqrar sektoru ərzaq təhlükəsizliyini hələ ki, təmin edə bilmir. İdxalından asılılıq təxminən 50 faiz civarında qalır. Baxmayaraq ki, dövlət tərəfindən aqrar sektora böyük dəstək verilir, milyardlarla investisiya qoyulur, subsidiyalar və güzəştlər verilir. Deməк, aqrar sahədə fundamental islahatların aparılması vacibdir.**

Problem ondadır ki, Azərbaycanda planlı təsərrüfat sistemi tətbiq olunmur. İndi kim nə istəyirsə, onu əkir. Bir il bir məhsul az əkilir, digəri çox. Bir məhsul bir il həddən artıq bol olanda onu əkənlər ucuz satmalı olurlar və ziyana düşürlər. Həmin il hansısa məhsul az əkilibsə, onun qiyməti xeyli baha olur. Bu səbəbdən də kənd təsərrüfatı mallarının qiymətləri stabil olmur. Burada həm əkinçilər zərərə düşür, həm də istehlakçılar. Hansısa məhsul az əkiləndə həmin məshulun xaricdən böyük həcmdə idxalı baş verir ki, bu həm baha başa gəlir, həm ölkədən valyuta çıxır, həm də idxal olunan GMO məhsullar əhalinin sağlamlığına zərər vurur.

Bütün bunlar aydın şəkildə göstərir ki, aqrar təsərrüfatı dövlət planlaşdırmalıdır. Sovet dövründə belə idi, ona görə də, respublikada hansı məhsuldan nə qədər tələbat varsa ən azı o qədər əkilirdi. O vaxt aqrar sektora elmi yanaşılırdı. Məsələn, iqlim, torpaq fondu və sair faktorlar nəzərə alınmaqla hansı regionlarda nə əkmək daha yaxşı effekt verirdisə, orada həmin məhsullar əkilirdi. İndi isə, kim harda nə gəldi əkir. Bu da bir çox hallarda zərərlə başa çatır.

Əsas ərzaq məhsulları növləri üzrə planlaşdırmadan əlavə, həm də regional planlaşdırma olmalıdır. Hər zonanın öz spesifik xüsusiyyətləri var, bunlara uyğun olaraq həmin zonada hansı növ bitkilər əkilməsi, hansı növ heyvandarlığın inkişaf etdirilməsi müəyyən edilməlidir. Dövlət mütləq burada iştirak etməli, planlaşdırmanı (stimullaşdırma yolu ilə) təşkil etməli, maliyyə dəstəyi verməlidir. Məsələn, kimsə kartof əkmək istəyirsə, o bilməlidir ki, nə qədər tələbat var. Tələbat olacaqsa, o əkməlidir, yoxdursa, əkməməlidir.

Hazırda əkinçilər bilmir ki, bu il respublikada hansı məhsullar çox əkiləcək. Çünki belə bir məlumat onlarda yoxdur. Bu cür məlumatlar ancaq dövlətdə ola bilər- Kənd Təsərrüfatı Nazirliyində. Nazirlik istehsalçıları elə yönləndirə bilər ki, həmin ildə bütün vacib məhsulların əkinləri uyğun həcmdə olsun. Bu halda, misal üçün, hər hansı məhsul bir il 5 manat, o biri il 1 manat olmaz.

Bir mövsümdə hansısa məhsuldan həddən çox əkilməsi ilk baxışda bazarda həmin məhsul üzrə bolluq və ucuzluq yaratsa da, digər hansısa məhsulların baha olmasına gətirib çıxarır. Bu, həmin il aqrar istehsalçıların bir qrupuna faydalı olur, ancaq digər qrup zərərə düşür və bezib əkinçilikdən əl çəkir. Yekun nəticədə ölkə idxaldan asılı qalır və növbəti illərdə daha baha və keyfiyyətsiz məhsul almalı olurlar.

Daha bir problem isə bazarlardakı alverçi qrupudur. Belə ki, paytaxtda və digər şəhərlərin bazarlarında kənd təsərrüfatı məhsullarını əsasən alverçilər satır. İstehsalçının bazara girişi məhduddur, alverçilər ondan məhsulu, məsələn 20-30 qəpikdən alıb 70-80 qəpiyə satırlar. Bu halda həm istehsalçılar, həm də alıcılar uduzur. Udan yalnız alverçilərdir. Amma istehsalçı bazara buraxılsa, öz məhsulunu, məsələn 20 qəpiyə yox 40 qəpiyə satardı. Burada o iki dəfə çox qazanmış olur, alıcılar isə məhsulu iki dəfə ucuz almış olurlar.

Bunu təmin etməklə, ölkədə bolluq və ucuzluq yaratmaq olar. Dəfələrlə təklif etmişik ki, nazirlik bütün şəhərlərdə böyük daimi yarmarkalar təşkil etməlidir. Oraya öz məhsulunu gətirənlər pulsuz ya da simvolik qiymətlə buraxılmalıdır, alverçilər kənarlaşdırılmalıdır. Bu halda istehsalçılar öz məhsullarını rahat sata biləcək, yaxşı gəlir əldə edəcək, gələn il daha çox məhsul əkməkdə maraqlı olacaq. Dolayı yolla ölkədə bolluq və ucuzluq yaranacaq, artıq məhsulu xaricə ixrac etmək və ölkəyə valyuta qazandırmaq mümkün olacaq.

Daha bir problem də, yerli istehsalı yüksək olan məhsulların ölkəyə idxalıdır. Tutaq ki, ölkədə keyfiyyətli, təbii kartof əkini yüksək həcmdə olduğu halda, kimlərsə xaricdən ucuz GMO kartof gətirməyə cəhd edir. Bu məsələlərə ciddi nəzarət olmalı, qadağan edilməlidir. Yerli istehsalı öldürmək olmaz. Biz xaricdən ölkədə istehsalı olmayan və ya çox az olan ərzaq məhsullarını almalıyıq. Digərlərində yerli istehsalçılara üstünlük verməli, imkan yaratmalıyıq.



Protektionist gömrük siyasəti aparılmalıdır. Elə addımlar atılmalıdır ki, yerli istehsalçılar maraqlı olsunlar və məhsul istehsal etməyə davam etsinlər. Buna nəzarət olunsa, bu sahədə qısa zaman ərzində irəliləyişlər əldə ediləcək.

Kənd Təsərrüfatı Nazirliyi indiyədək bu barədə elə də effektiv addımlar atmayıb. Düzdür, bu sahədə irəliləyişlər var, ancaq bu, dövlətin ümumi işinin, ayrılan böyük vəsaitlərin nəticəsidir. Nazirlikdə rəhbərlik dəyişilib, yeni kadrlar gəlib. Ümid edirəm ki, onlar növ və regional planlaşdırmaya diqqət yetirəcək, buna uyğun olaraq yeni addımlar atılacaq.



Aqrar sektor Azərbaycanda ən gəlirli sahə ola bilər, hətta neftdən də çox gəlir vermək potensialı var. Sadəcə düzgün yanaşma olmalıdır. Bunu edə bilsək, tezliklə ölkədə sosial-iqtisadi inkişaf daha böyük vüsət ala bilər, işsizlik tam aradan qaldırılar, ÜDM, dövlət büdcəsinin gəlirləri, qeyri-neft ixracımız artar, idxal azalar, əhalinin sosial vəziyyəti xeyli yaxşılaşar.

Aqrar sektor təkcə əkin əkilməsi, heyvandarlıq demək deyil, bu böyük yeyinti və yüngül sənaye sistemi deməkdir. Yeni, zavodlar, fabriklər, digər istehsal müəssisələri. Bunları yaratmaqla, xaricə ucuz qiymətə satdığımız xammalı özümüz emal edib hazır məhsul alarıq və daha çox qazanc əldə edərik. Xammal ixracatçısından, hazır məhsul ixracatçısına çevrilməlyik. Bunu yaratmaq üçün maliyyə imkanları da var. Hesab edirəm ki, məhz aqrar sənayenin yaradılması üçün strateji ehtiyatlarımızdan bir neçə milyardı ölkəyə gətirib bu sahəyə investisiya etmək olar.

Ümumiyyətlə, son 30 ildə ölkə əhalisinin demoqrafik miqrasiyası birxətlidir- regionlardan Bakıya axın davam edir. Hazırda respublika əhalisinin yarısı Abşeron yarımadasında məskunlaşıb. Dediyimiz tədbirlər həyata keçirilsə, regionlarda həyat canlanar, paytaxta cəmləşmiş əhalinin böyük hissəsi geri qayıdar. Tarazlı inkişaf gedər və devirsifikasiya olunmuş iqtisadiyyat formalaşar.



Hökumət ”Kəndə qayıdış” proqramı elan etməli, boş torpaqlarda təsərrüfat yaratmaq istəyən vətəndaşlara güzəştlər və kreditlər verməlidir. Televiziyada kənd həyatı təbliğ edilməli, əkin-biçin təşviq edilməlidir. Ali təhsildə aqrar sahəni, iş yerlərində regionları seçən şəxslərə xüsusi imtiyazlar verilməlidir.

Xüsusən də, işğaldan azad olunmuş ərazilərdə aqrar sektorun böyük potensialı var. Bu bölgədə aqrar istehsalçılara dövlət dəstəyi və güzəştlər artırılmalıdır. Artıq bu sahədə müəyyən işlərə başlanıb. Heyvandarlara subsudiyalar, əkinçilərə yardımlar həyata keçirilir. Bu işi genişləndirməyə ehtiyac var.

Əminəm ki, həm KTN, həm də digər aidiyyatı dövlət orqanları bu istiqamətdə var gücü ilə çalışacaq, mövcud potensialdan səmərəli istifadə edəcək. Post-neft dövründə Azərbaycan dünyada qeyri-neft ixracatçısı kimi tanınacaq, indi xaricdən aldığımız məhsulların çox böyük hissəsi respublikada istehsal olunmuş olacaq. Və biz ölkəmizin təhlükəsiz gələcəyini təmin etmiş olacağıq.

***Elçin Bayramlı***



# Azərbaycan neftinin qiyməti 100 dolları keçib

Dünya bazarında "Azeri Light" markalı Azərbaycan neftinin 1 barelinin qiyməti 2,61 ABŞ dolları, yaxud 2,66 % artaraq 100,87 ABŞ dolları təşkil edib. Bu barədə SİA-ya neft bazarındakı mənbə məlumat verib. Hərraclarda "Brent" markalı neftin yanvar fyuçersləri 94,67 ABŞ dollara satılıb. Azərbaycanın builki dövlət büdcəsində bir barel neftin orta qiyməti 85 ABŞ dollarından götürülüb.

Xatırladaq ki, "Azeri Light" neftinin ən aşağı qiyməti 2020-ci il aprelin 21-də (15,81 ABŞ dolları), maksimal qiyməti isə 2008-ci ilin iyulunda (149,66 ABŞ dolları) qeydə alınıb. Azərbaycanda neft əsasən "Azəri-Çıraq-Günəşli" (AÇG) yataqlar blokunun işlənməsi haqqında müqavilə çərçivəsində hasil edilir. Müqavilədə Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR) payı 25 %-dir.



# Sevgi, yoxsa pul?

ARAŞDIRMA

**Günümüzdə varlı kişi ilə birlikdə olmaq bir çox qadının arzusudur. Hətta analarımız bizimlə evlilikdən danışanda varlı oğlanlarla evlənmək barədə zarafatlaşırlar. Həmçinin, serial və verilişlərdə varlı kişilərlə evlənmək mövzusu da geniş yayılıb. Bütün bunlar onu göstərir ki, əksər qadınlar pullu kişilərlə evlənmək istəyirlər. Üstəlik, onların sayı günü-gündən artır.**

Keçmişdə dünyada ən varlı adamlar idmançılar və aktyorlar idi. İndi gənclər çox riskli və gəlirli biznes sahələrində çalışırlar. Bir çox insanlar puluna və ya işinə görə deyil, öz fərdi xüsusiyyətlərinə görə sevilmək istəyirlər. Həmçinin, maddi gücü yüksək olan bu kişilərin qadınlardan gözləntiləri çox yüksəkdir. Sevgilisinin çox gözəl olmasını və sosial mühitlərə asanlıqla uyğunlaşa bilməsini istəyirlər.

ABŞ-da aparılan araşdırmaya görə, varlı qadınlar maddi cəhətdən bərabər şəkildə gördükləri kişiləri cəlbedici hesab etdikləri halda, kişilərin partnyorlarında axtardıqları tamamilə fərqlidirlər. Yüksək gəlirli kişilər həmkarlarının fiziki xüsusiyyətlərinə görə seçim edərkən, yüksək gəlirli qadınlar sabit gəliri olan kişilərə üstünlük verirlər.

Chapman Universitetinin professoru David Frederik, "Bizi ən çox təəccübləndirən kişi və qadınlar arasındakı kəskin və hiss olunan fərqdir" deyib. Sorğuda iştirak edən qadınların 46 faizi partnyorlarının ən azı onlar qədər pul qazanmasının vacib olduğunu desələr də, kişilərin yalnız 24 faizi buna əhəmiyyət verdiklərini bildirib. Qadınların 66 faizi partnyorlarından uğurlu karyera gözlədiyi halda, kişilərin yalnız 33 faizi bunu gözləyir. Kişilərin 80 faizi partnyorunun fiziki xüsusiyyətlərinin gözəl olmasını istədiyi halda, qadınların 58 faizi kişilərin fiziki xüsusiyyətlərə diqqət yetirir.

Araşdırmalara görə, varlı kişilər digər kişi və qadınlara nisbətən bilmədikləri məsələlər haqqında danışmağı sevirlər. London Akademiyası və Avstraliya Katolik Universitetindən olan sosial elmlər üzrə ekspertlər qrupu tərəfindən aparılan araşdırmada cəmiyyətin hansı təbəqələrinin boş danışmağa daha çox meylli olduğu araşdırılıb. Bəs, sevgi, yoxsa pul? Qızlar niyə varlı ər axtarışındadır? SİA mövzu ilə bağlı araşdırma aparıb.

Ümumiyyətlə, varlı ər bir seçimdir. Hər kəsin öz şəxsi fikri və seçimi var. Yəni, kimisə sırf varlı ər istədiyi üçün qınamaq olmaz. Lakin varlı ər istəyən qadınlarla varlı sevgili istəyən qadınlar arasında böyük bir fərq var. Bəziləri varlı ər adı ilə kiminsə ailəsini dağıdaraq özünə ər seçir. Bunlar arasında böyük fərq var.

Necə ki, qadınların bir çoxu varlı kişilərlə evlənmək istəyirsə, kişilərin bəziləri də varlı qadın axtarışındadır. Bunu hamıya şamil etmək olmaz. Amma əsasən belədir. Lakin qadınların kriteriyaları biraz daha fərqlidir. Qadınlar pullu kişilərlə yanaşı, ağıllı kişiləri sevirlər. Dünyada aparılan araşdırmalara görə, atasının hesabına varlı olan kişilərlə nisbətdə, öz ehsabına qazanan və varlı olan kişilər qadınlara daha çəkici gəlir. Yəni, qadnın həm də ağıllı kişiyə ehtiyacı var.

Qadınlar həm də güclü kişiləri sevir. Çünki onların hamiləlik kimi həssas dönəmləri olur və bu zaman qayğıya xüsusi ehtiyacı olur. Əsər qadınların sevdiyi digər kişi modeli isə sahiblənən kişidir. Lakin bu sahiblənmək sözdə deyil, əməldə də olmalıdır. Araşdırmalar göstərir ki, qadın sevildiyini və sahiblənildiyini hiss etmək istəyir.

*Ayşən Vəli*

# Zərdabda azyaşlı qızı qaçırmaq istədilər

Zərdabda azyaşlı qızı qaçırmağa cəhd göstəriblər. Bu barədə SİA-ya Daxili İşlər Nazirliyindən məlumat verilib. Zərdab Rayon Polis Şöbəsinə noyabrın 3-də Körpükənd kəndi ərazisində bir nəfərin kənd sakini olan azyaşlı qızı qaçırmağa cəhd göstərməsi, qız səs-küy saldığından onu buraxıb hadisə yerini tərk etməsi barədə məlumat daxil olub.



Polis əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində adam oğurluğuna cəhd etməkdə şübhəli bilinən Körpükənd kənd sakini, əvvəllər məhkum olunmuş Məmməd Məmmədov müəyyən olunaraq saxlanılıb. Faktla bağlı Cinayət Məcəlləsinin 29,144-cü maddəsi (adam oğurluğuna cəhd) ilə cinayət işi başlanılıb. Zərdab Rayon Polis Şöbəsində araşdırma aparılır.

# Göyçayda kütləvi dava olub, 3 nəfər bıçaqlanıb

Göyçayda kafedə kütləvi dava olub, 3 nəfər bıçaqlanıb. Bu barədə SİA-ya Daxili İşlər Nazirliyinin (DİN) Mətbuat Xidmətindən məlumat verilib. Bildirilib ki, Göyçay Rayon Polis Şöbəsinə noyabrın 5-də saat 2 radələrində Çəyirli kəndi ərazisində yerləşən kafedə 3 nəfərə kəsilmiş-çapılmış xəsarətlər yetirilməsi barədə məlumat daxil olub. Polis əməkdaşları tərəfindən müvafiq tədbirlər həyata keçirilib.

Araşdırmalarla həmin vaxt kafedə rayon sakinləri - Elşad Mirzəliyevin, Kürdəmiş kənd sakini Zamiq Həsənovun və əvvəllər məhkum olunmuş Toğrul Bayramovun münaqişə zəminində Kürdşaban kənd sakini Pərvin Hüseynova bıçaqla çoxsaylı xəsarət yetirmələri, həmin vaxt onları aralaşdıran Kürdəmiş kənd sakini Aqil Yusifovun və Kürdşaban kənd sakini Seymur Rəhimovun kəsilmiş-çapılmış xəsarətlər almaları məlum olub.

Polis əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində qəsdən sağlamlığa ağır zərər vurmada şübhəli bilinən E.Mirzəliyev, T.Bayramov və Z.Həsənov saxlanılıblar. Xəstəxanaya yerləşdirilən P.Hüseynovun vəziyyəti ağırdır. Digərlərinə isə ilkin tibbi yardım göstərildikdən sonra buraxılıblar. Göyçay Rayon Polis Şöbəsində araşdırma aparılır.

# Xoşbəxtlik hormonu nə zaman ifraz olunur?

**"Yuxu rejiminin pozulması birbaşa qidalanma və həyat tərzi ilə yaxından əlaqəlidir. Bir insanın sağlam orqanizmə sahib olması üçün mütləq şəkildə onun düzgün və sağlam yuxu rejimi olmalıdır. Gənclər bir gün ərzində 7-8 saat, böyüklərin isə 6-7 saat yatması normal hesab olunur". Bu sözləri SİA-ya açıqlamasında sağlam qidalanma üzrə mütəxəssis Məhsəti Hüseynova bildirib.**

Onun sözlərinə görə, yuxu saatı da düzgün seçilmədir: "Gecə saat 23:00-dan sonra fasiləsiz yuxu rejimi olmalıdır. Çünki orqanizmdə həm bioloji qocalmanın qarşısını alan, həm də insanları enerjili, gümrah edən xoşbəxtlik hormonu məhz gecə saat 23:00-dan 01:00-a qədər yatdıqda ifraz olunur. Bunu göz önünə alaraq mütləq həmin saatlarda yuxuda olmalıyıq. Əgər biz həmin saatlarda rejimimizi pozuruqsa və oyağıqsa, orqanizmdə həm qocalma, həm də daxili orqanların funksiyasının yavaş-yavaş itirməsi və depressiyaya meyilli, eyni zamanda özümüzü yorğun və əzgin hiss edə bilərik. Qidalanma ilə də yuxu birbaşa əlaqəlidir.

Əgər sağlam yuxu yatmaq istəyiriksə, yuxudan ən azı iki saat əvvəl yemək yeyilməlidir. Əks təqdirdə yuxu rejimi pozulur. Xüsusilə də axşam yeməklərində yağlı, boş kalorilərdən ibarət qidalardan istifadə etməməliyik. Uzun müddət yuxusuz qalan insanlarda artıq müəyyən problemlər yaranmağa başlayır. İnsanlar bu zaman stresə meyilli və aqressiv olurlar".



*Səbinə Hüseynli*

## ELAN

"Sünbül" ASC-nin Səhmdarlarının nəzərinə!

"19" dekabr 2022-ci il saat 11:00 - da növbəti illik ümumi yığıncağı keçiriləcəkdir.

İclasın gündəliyi: 2021-ci ilin illik hesabatlarının təsdiqi.

Ünvan: Bakı şəhəri, N.Nərimanov rayonu, Məmməd Araz küçəsi 128A

*Tel: (012) 539-09-94*

*Baş redaktor:*
Bəhruz Quliyev

Ünvanımız:
Bakı şəhəri,
Üzeyir Hacıbəyov küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

Tiraj: 3600